

## Prezident onu Naxçıvana səlahiyyətli nümayəndə təyin etdi

*Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin təyin edilməsi haqqında Sərəncam imzalayıb.*

Səh.2


# UNİKAL

№48 (2133) 23 dekabr 2022-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru




## Samir Şərifov "portfel naziri"nə çevrilir

## Maliyyə naziri ən mühüm səlahiyyətlərindən birini itirdi

Maliyyə naziri Samir Şərifov özünün ən mühüm səlahiyyətlərindən birini itirib. Belə ki, ölkə başçısı Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri haqqında" 2009-cu il 9 fevral tarixli 48 nömrəli və "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2019-cu il 16 oktyabr tarixli 842 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə fərman imzalayıb.

Səh.7



Səh.9

## Oliqarxlaşmış məmurlara "Vasif Talıbov dərsi"

## "Dövlət orqanlarında xalqa bağlı insanlar təmsil olunmalıdır"



*Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu "Unikal"a müsahibə verib. O, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun istefa verməsindən, Naxçıvandakı vəzifəli şəxslərin həbsindən, Azərbaycanın Qarabağ iqtisadi rayonunda faydalı qazıntı yataqlarının...*

Səh.4

## Azərbaycanı diplomatik dalana sürükləmək istəyirlər



*"Üçtərəfli bəyanatın bir çox müddəalarını pozan Ermənistandır. Onların silahlı qüvvələrinin qalıqlarının Azərbaycan ərazisindən çıxarılması, delimitasiya, demarkasiya prosesinin başlanılması, kommunikasiyaların açılmasını əks etdirən müddəalar həyasızcasına və bilərəkdən Ermənsitan tərəfindən pozulub.*

Səh.9

## Erkən nikahın qarşısının alınması üçün qanunvericilik sərtləşdirilir



*Ölkəmizdə Ailə Məcəlləsinə görə nikah yaşı 18 yaş müəyyən edilsə də, erkən nikah hallarına rast gəlinir. Nikah yaşında istisnaların olması bəzən erkən evliliklərə vəsilə olur. Hətta 18 yaşına çatmamış molla kəbininin kəsilməsi din xadimlərinə qadağan edilsə də, bəzən buna əhəmiyyət verilmir.*

Səh.11

# "Allah cəzanızı versin" - Günel Zeynalova



***Müğənni Günel Zeynalova sosial media hesabındakı paylaşımı ilə diqqət çəkib.***

Bir müddət əvvəl tülküyə qarşı qəddarlıq göstərdiklərinin əks olunduğu videonu paylaşaraq, onları tənqid edib. "Sən, bu səsin sahibi, "dərsini niyə öyrənməmisən deyirsən?" Dilsiz canlıya sual verirsən? Sən dərsini yaxşı öyrənmisən ki, bu videonu çəkə bilirsən? Aç Quranı oxu, onlar axirətdə dil açıb danışacaqlar. O zaman Allah qarşısında dərsini danışarsan təkrar.

Allah sizin cəzanızı versin, sənin də, bellə vuran vicdansızın da. Avara, boş insan yığını. Artıq bu videoları görmək istəmirəm. Allah səni yaratdığı kimi, onu da yaradıb. Bu da bizimkilər, utandım sizin yerinizə. Tezliklə sizi tapıb cəza versinlər" deyə, Günel paylaşımında yazıb.

Qeyd edək ki, sözügedən video bu ilin yay aylarında yayılıb. Daxili İşlər Nazirliyinin yaydığı məlumata görə, əməli törədənlərin Sabirabad rayon sakini Cəsarət Bayramov və Neftçala rayon sakini Kənan Dünyamalıyev olmaları müəyyən edilmişdi. Onlar barəsində İnzibati Xətalar Məcəlləsinin 510-cu və 535-ci maddələrinə əsasən protokollar tərtib olunaraq baxılması üçün məhkəməyə göndərilmişdi.

Məhkəmənin qərarı ilə hər iki şəxs inzibati qaydada 30 sutka həbs olunmuşdu.

# Rövşanə: "Min hoqqa çıxarılan yerdən..."



***"Bəzi kişilərdə belə bir problem var - qadını sıx, alçalt, əz, təhqir et, ayaqlar altına at... Qadın sözünü demək istədikdə isə "Sənin nə haqqın var?" deyib, əxlaq damğası yapışdıracaqlar".***

"Unikal" bizim.media-ya istinadən bildirir ki, bu sözləri "Ümid ilə gəl" ictimai-sosial verilişində ekspert qismində iştirak edən telejurnalist Rövşanə Ağasəfqızı deyib.

Aparıcı ailəsində problemlərlə üzləşdiyi səbəbi ilə verilişlərə pənah gətirən həm qadınları həm də onların ərlərini tənqid edib: "Mən bilmirəm, efir əxlaqsızlıq yuvasıdır ya nədir? Min hoqqa çıxarılan yerdən bəzilərinin heç xəbəri yoxdur, arvadlarından, qızlarından, bacılarından xəbərləri yoxdur. Efir ictimai və milyonların gördüyü yerdir".



# Fatimə məclisdə pulları yerə səpdi

***Rəqqasə Fatimə Fətəliyevanın instaqramda paylaşdığı video müzakirələrə səbəb olub.***

Məclisdə lentə alınan görüntüdə sənətçi 100 manatları oynayanların başına səpib, daha sonra isə qalanını yerə töküb.

Fatimə paylaşımına "Allah məni kimsəyə möhtac etməsin. Tək Allahıma möhtac olum" sözlərini yazıb. Onun bu paylaşımı izləyicilərin tənqidinə səbəb olub.

# Tərana Qumraldan kürəkəninə bahalı hədiyyə

***Müğənni Tərana qızı Qumralın həyat yoldaşına təmtəraqlı ad günü keçirib.***



Tərənə Qumral kürəkəninin doğum gününü paytaxtın tanınmış məkanlarından birində qeyd edib.

Müğənninin qızının həyat yoldaşı Natiqə sürprizi bununla da yekunlaşmayıb. Tərənə kürəkəninə ən bahalı saat markalardan olan "Rolex" saatı hədiyyə edib. Sənətçi saatın üzərinə "Qaynanasından Natiqə hədiyyə" sözlərini də həkk etdirib.

Araşdırma zamanı sözügedən "Rolex"in dəyərinin təxminən 15 min dollar (25 min manat) olduğu məlum olub.

# Xatirə İslam: "Onlarda nəsə acılıq var..."

***"Bir fikir var, eybəcər adam haqda deyirlər ki, əsas onun ürəyi gözəldir. Eybəcər insanın heç vaxt ürəyi gözəl ola bilməz".***

"Unikal" olay-a istinadən bildirir ki, bu sözləri "Günün sədası" proqramında müğənni Xatirə İslam deyib. İfaçı bildirib ki, insanın ürəyi necədirsə, üzü də elə görünür: "Onun ürəyi necədirsə, üzündədir. İnsan eybəcər ola bilər. Ürəyi gözəldirsə, onun üzündə əks olunmalıdır. Onu hiss etməlisən, ürəyi pis olan adamın üzü gözəl görünə bilməz. Onlarda nəsə acılıq var. müğənnilərimizin, aparıcılarımızın, adi adamların içində elələri var ki, deyirsən suyu şirin deyil, nəsə qanı acı gəlir". (Olay.az)






# Hulusi Kılıç Ağsaqqallar Şurasında olub

***Türkiyənin Azərbaycandakı sabiq fövqəladə və səlahiyyətli səfiri Hulusi Kılıç öz istəyi ilə Respublika Ağsaqqallar Şurasında qəbul edilib.***

"Unikal" xəbər verir ki, görüşdə Azərbaycan Ağsaqqallar Şurasının sədri, millət vəkili, professor Eldar Quliyevlə yanaşı, sədrin birinci müavini, millət vəkili, akademik Əhliman Əmiraslanov, sədr müavini, millət vəkili, professor Eldar İbrahimov, həmçinin Şuranın Aparat rəhbəri Ramin Həsənli, böyük məsləhətçi-hüquqşünas Kamal Əliyev və mətbuat katibi Rafiq Rzayev də iştirak edib.

Azərbaycanın dostu, sabiq səfir Hulusi Kılıçla görüşdən məmnun olduğunu bildirən Eldar Quliyev Şuranın fəaliyyəti barədə, o cümlədən Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının üzv ölkələrinə - qardaş Türkiyə başda olmaqla Türkmənistan, Özbəkistan və Qırğızıstanla davamlı inkişaf etdirilən sıx əməkdaşlıq və həyata keçirilən işgüzar səfərlər haqqında ətraflı məlumat verib. Vurğulayıb ki, məqsədimiz dövlətimizə, xalqımıza xidmət etmək, gənclərimizin maarifləndirilməsində, onların zərərli vərdişlərdən, xarici təsirlərdən uzaq sağlam təməllər üzərində yetişməsində yaxından iştirak etməkdir. Eldar Quliyev, həmçinin, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə "Heydər Əliyev ili" elan olunan 2023-cü ildə bir çox tədbirlərin, o cümlədən türk dövlətlərinin ağsaqqallarının da iştirakı ilə böyük bir konfransın keçiriləcəyini bildirib. Natiq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevlə Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan arasındakı yaxın dostluq və qardaşlıq münasibətlərindən də söz açaraq, ölkələrimizin gündən-günə artan birgə fəaliyyət perspektivlərindən bəhs edib.

Səmimi şəraitdə keçən görüş və söhbət zamanı Azərbaycan Ağsaqqallar Şurası sədrinin birinci müavini, millət vəkili, akademik Əhliman Əmiraslanov da uzun illər dostluq münasibətlərinin olduğu Hulusi Kılıçın xalqımız və dövlətimiz tərəfindən sevildiyini bildirərək, gələcəkdə onunla birgə çalışmaqdan məmnun olduqlarını ifadə edib. O, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də Türkiyənin ölkəmizdəki sabiq fövqəladə və səlahiyyətli səfiri Hulusi Kılıçın fəaliyyətini yüksək qiymətləndirdiyini və onu "Dostluq" ordeni ilə təltif etdiyini xatırladıb.

Sabiq səfir səmimi qəbula görə öz təşəkkürünü ifadə edərək, iki ölkə arasında olan dostluq və qardaşlıq münasibətlərindən danışıb. Azərbaycanı özünə doğma vətən hesab etdiyini bildirən Hulusi Kılıç qürurla "mən hər bir azərbaycanlıdan daha çox azərbaycanlıyam" deyərək ölkəmizlə bağlı xoş təəssüratlarını görüş iştirakçıları ilə bölüşüb. O, söhbət zamanı Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurası tərəfindən Azərbaycan Ağsaqqallar Şurasının ölkəmizdə ağsaqqalları təmsil edən yeganə legitim təşkilat kimi tanındığını və qəbul edildiyini bir daha vurğulayıb. Əlavə edib ki, o özü də bundan sonra böyük məmnuniyyətlə Azərbaycan Ağsaqqallar Şurasının fəaliyyətində yaxından iştirak edəcəkdir.

Daha sonra Azərbaycan Ağsaqqallar Şurasının sədri, millət vəkili, professor Eldar Quliyevə ön söz müəllifi olduğu "Zəfərin zərif gücü Mehriban Əliyeva" kitabını hədiyyə edən Hulusi Kılıç Şurada yaradılan işgüzar şəraitlə tanış olub.

Sonda xatirə şəkli çəkdirilib.

# Oliqarxlaşmış məmurlara "Vasif Talıbov dərsi"

## Özlərini "toxunulmaz" sayan, "köhnə hamam, köhnə tas" prinsipi ilə işləyən vəzifəliləri gözləyən aqibət bundan sonra da dəyişməyəcək!



***Nəhayət, gözlənilən baş verdi: Vasif Talıbov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsindən azad edildi.***

"Nəhayət" deyirik, çünki 27 ildir tutduğu Ali Məclis postu sayəsində əməlli-başlı oliqarxlaşan, Muxtar Respublikada "xanlıq" quran, inanılmaz var-dövlətə yiyələnən və son vaxtlar ümumiyyətlə "gözü ayağının altını seçməyən" Talıbovu yaxşı aqibətin gözləmədiyi bir müddətdir bəlli idi. Kiçik xatırlatma: öncə Naxçıvan MR Gömrük Komitəsinin Gömrük tariflərinin tənzimlənməsi və ödənişlər şöbəsinin rəisi Əsgərov Mənsur Turan oğlu həbs olundu. O, Dövlət Təhlükəsizliyi Xidmətinin Naxçıvan Gömrük Komitəsində həyata keçirdiyi əməliyyatların və Cinayət Məcəlləsinin 179.4-cü maddəsi (xüsusilə külli miqdarda ziyan vurmaqla mənimsəmə və ya israf etmə) ilə başlanmış işin gedişi üzrə qandallanmışdı.

Bundan sonra Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Rafael Əliyevin həbsi baş verdi. Məlumata görə, R.Əliyev eyni cinayət işinin gedişi üzrə həbs edilmişdi. Ardınca Səbail Rayon Məhkəməsi Vasif Talıbovun ətrafından daha bir iri məmurun - Naxçıvan Muxtar Respublikası Şəhərsalma və Arxitektura Komitəsinin sədri Rüstəmov Hicran Yaqub oğlunun barəsində müstəntiqin vəsatətinə baxdı. Məhkəmə Hicran Rüstəmov barəsində həbs qətimkan tədbiri seçdi. O, 212 milyon manat dövlət vəsaitini mənimsəməkdə şübhəli bilinirdi.

Bununla da V.Talıbovun komandasından rəsmən həbsə göndərilən məmurların sayı üçə, talanan dövlət vəsaitinin miqdarı isə 500 milyon manata çatmışdı.

Bu səviyyədə talançılıq ittihamlarından sonra V.Talıbovun vəzifəsində qalacağı ehtimalı sıfıra bərabər idi. Lakin MR Ali Məclisinin sədri vəzifəsi seçkili vəzifə olduğundan onu Prezident sərəncamı ilə vəzifəsindən uzaqlaşdırmaq və yerinə başqa bir təyinat həyata keçirmək mümkün deyildi. Ehtimal ki, ətrafında "halqa"nın daraldığını və qurtuluş şansının qalmadığını anlayan Talıbov "səhhəti ilə" bağlı istefa verməkdən başqa çıxış yolu görmədi.

Lakin özünü qeyri-rəsmi şəkildə "Naxçıvan xanı" elan etmiş Talıbovun başı üzərindəki "qara buludların" tamamilə dağıldığını düşünmək də olmaz. MR Ali Məclisinin sabiq sədri ilə bağlı korrupsiya faktları o qədər çoxdur ki, barəsində hüquqi ölçü götürülə biləcəyi də istisna edilmir. Eyni zamanda onun aqibəti oliqarxlaşmış bütün məmurlara növbəti xəbərdarlıqdır. Bir daha təsdiqləndi ki, tutduğu postdan özünün və ətrafının varlanması üçün istifadə edən, ölkədəki genişmiqyaslı kadr və struktur islahatlarının mahiyyətini anlamayaraq, yaxud da anlamaq istəməyərək "köhnə hamam, köhnə tas" prinsipi ilə işləyən vəzifəlilərə hər hansı güzəştdən söhbət gedə bilməz. Elə ölkə başçısı son illərdəki çıxışlarında dəfələrlə bunun anonsunu vermişdi. Dəfələrlə xatırlatmışdı ki, bir neçə keçmiş icra başçısı cinayət məsuliyyətinə cəlb edilib, bəzilərinin hökmü verilib, bəzilərinin işləri məhkəmədədir: "Bu onu göstərir ki, heç kim qanundan üstün ola bilməz. Mən bütün icra başçılarını vəzifəyə təyin edərkən göstərişlərimdən biri o idi ki, korrupsiyaya, rüşvətxorluğa qarşı biz amansız mübarizə aparmalıyıq və icra başçıları burada nümunə olmalıdırlar. Əfsuslar olsun ki, bəziləri əyri yolla gediblər və bu gün bunun acısını çəkirlər. Bu, hər bir dövlət məmuru üçün dərs olmalıdır". İdarəetmədə çox ciddi islahatlar, böyük təmizləmə işləri aparıldığını qeyd edən Prezident bu işlərə rəvac verən, bəzi dövlət məmurlarını, yerli icra orqanlarını qanunsuz işlərə təhrik edən insanların hakimiyyətdən uzaqlaşdırıldığını bildirmiş və xəbərdarlıq etmişdi: "Dövlət orqanlarının nümayəndələrinə deyirəm, eyni zamanda, qanunsuz işlərlə məşğul olmaq istəyən insanlara deyirəm: Əl çəkin bundan! Cəzalandırılacaqsınız və cəzalandırılırlar. Biz kiminsə tamahına, kiminsə şəxsi maraqlarına görə ölkəmizin uğurlu inkişafına kölgə sala bilmərik. Qanunsuz işlərlə məşğul olmaq istəyənlər cəzalandırılacaq".

Lakin Prezidentin ardıcıl xəbərdarlıqlarından dərs çıxarmayanlar bunun bədəlini hüquqi müstəvidə indiyədək ağır ödəyiblər, bundan sonra da ağır ödəyəcəklər. Elə Vasif Talıbovla bağlı baş verənlər də göstərir ki, heç bir məmur nələrəsə arxayın olaraq özünü "toxunulmaz" saymamalıdır, ölkə rəhbərliyinin islahatlar kursuna zidd şəkildə işləməməlidir, fəaliyyətində özünün, ailə üzvlərinin şəxsi, merkantil maraqlarını yox, Dövlətin və Millətin maraqlarını üstün tutmalıdır. Başa düşməlidir ki, Azərbaycanda məmurların oliqarxlaşması dövrü artıq keçmişdə qalıb, indi məmurların başlıca vəzifəsi - vətəndaşa xidmətdir.

Qısası, Vasif Talıbov məsələsi hər bir vəzifəli şəxs üçün növbəti siqnal, növbəti dərsdir.

Bu siqnala qulağını tıxayanlar, bu dərsdən payına düşəni götürməyənlər üçün isə yolun sonunu xatırlatmağa gərək yoxdur. Beləlləri (əlbəttə, əgər çox istəyirlərsə!) digər "kiçik padşahların" Vilyam Hacıyevlərin, Alimpaşa Məmmədovların da ibrətamiz aqibətini yada sala bilərlər...

***Toğrul Əliyev***



# Azərbaycanı diplomatik dalana sürükləmək istəyirlər



**Kamran Bayramov: "Bütün müddəalar həyasızcasına Ermənsitan tərəfindən pozulub"**



**Elxan Şahinoğlu: "Diplomatlarımız daha çox çalışsaydılar nəticə bizim üçün fərqli ola bilərdi"**

***"Uçtərəfli bəyanatın bir çox müddəalarını pozan Ermənistandır. Onların silahlı qüvvələrinin qalıqlarının Azərbaycan ərazisindən çıxarılması, delimitasiya, demarkasiya prosesinin başlanılması, kommunikasiyaların açılmasını əks etdirən müddəalar həyasızcasına və bilərəkdən Ermənsitan tərəfindən pozulub. Bu, beynəlxalq hüquqa hörmətsizlikdir".***

Bunu "Unikal"a açıqlamasında deputat Kamran Bayramov deyib. O bildirib ki, Birləşmiş Millətlər Təşkilatı (BMT) buna qiymət verməlidir: "Ona görə ki, BMT beynəlxalq hüququn aliliyini təşviq edən qurumdur. Özləri deyir ki, üçtərəfli bəyanatın müddəaları pozulur, amma onun kim tərəfindən və hansı formada pozulmasını nə araşdırır, nə də dilə gətirirlər. Burada qərəzdən də söhbət gedir. Üçtərəfli bəyanatın icrasına çağıran BMT Təhlükəsizlik Şurasına üzv dövlətlər bu məsələni araşdırmalı, Azərbaycanı dinləməli, mövqeyimizi öyrənməlidirlər. Görsünlər ki, həqiqi olaraq hansı tərəf üçtərəfli bəyanatı icra etmir".

BMT Təhlükəsizlik Şurasında (TŞ) Laçın yolundakı vəziyyətlə bağlı aparılan müzakirələrə münasibət bildirən deputat qeyd edib ki, orada yalnız bir tərəfin arqumentləri nəzərə alınıb və səsləndirilib: "Bu cür münasibət anlaşılan deyil. Bu, məsələyə birtərəfli qaydada baxışdır. Xankəndi-Laçın yolunda ekoloji aksiya ilə bağlı dinləmələr onu göstərdi ki, Azərbaycana qarşı müəyyən hörmətsizlik göstərilib. Orada Dağlıq Qarabağ termini istifadə olunub. Heç bir araşdırma aparmadan bu cür mövqeyin sərgilənməsi sülh danışıqları prosesinə də müəyyən zərbədir. Bizim üçün təəccüblü deyil ki, Ermənistan yenə də ortalığa düşüb, özünü dünyaya qurban kimi təqdim etmək, Azərbaycanı isə pisləmək istəyir. Ekoloji aksiyanı blokada rejiminin tətbiqi, humanitar böhran kimi təqdim edir. Biz reallıqda görürük ki, Azərbaycan yalnız öz ərazilərində ekoloji vəziyyətin bərpa olunmasını, təbii sərvətlərinin talanmasının qarşısının alınmasını tələb edir".

K.Bayramov əlavə edib ki, BMT Təhlükəsizlik Şurasına üzv dövlətlərin bu cür münasibət sərgiləməsi qərəzlidir: "O dövlətlərdə fəaliyyət göstərən ermənipərəst dairələr çalışırlar ki, bu məsələdə gərginlik yaratsınlar, sülh danışıqlarına, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesinə müəyyən zərbə vursunlar. Bu, xəşagəlməz məsələdir. Azərbaycanın BMT-dəki daimi nümayəndəsi müvafiq çıxış edərək erməni yalanlarını ifşa edib. Eyni zamanda, Xarici İşlər Nazirliyi həmin dinləmələrə münasibət bildirib. BMT Təhlükəsizlik Şurası bu məsələdə diqqətli olmalıdır".

Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva da sözügedən məsələ ilə bağlı mövqeyini ifadə edib. Onun sözlərinə görə, BMT Təhlükəsizlik Şurasına üzv dövlətlərin, demək olar ki, bütün bəyanatlarında üçtərəfli bəyanat çərçivəsində öhdəliklərin yerinə yetirilməsinə çağırış olub. O bildirib ki, İrəvan Azərbaycan, Rusiya və Ermənistan liderləri arasından imzalanan üçtərəfli sənədi kobud şəkildə pozur. "Ermənistan, nəhayət, BMT Təhlükəsizlik Şurasının üzvlərinin bu cür çağırışlarına əməl etməlidir", - diplomat vurğulayıb.

Politoloq Elxan Şahinoğlu isə bizimlə söhbətində bildirib ki, haqlı olduğumuz halda yenə bizi haqsız duruma sürükləmək istəyirlər. Onun fikrincə, BMT Təhlükəsizlik Şurasındakı müzakirələr və Qərb dövlətlərinin "yolun açılmasıyla" bağlı Azərbaycana çağırışları buna sübutdur: "İzahlarımızı qulaqardına vurdular. Narahat olmağa dəyməz, qulaqlarını tıxayaraq bizi eşitmək istəməyənlər həmişə olacaq, sadəcə diplomatlarımız daha çox çalışsaydılar nəticə bizim üçün fərqli ola bilərdi. Hadisələrin inkişafının bir neçə variantı var.

Birinci variant: Ermənistanla Qarabağı birləşdirən yolda etirazımız yataqlarda monitorinqə icazə verilən günə qədər sürəcək. Bu zaman müxtəlif ölkələrin Azərbaycana qarşı təzyiqləri davam edəcək. Ancaq bizi heç nəyə məcbur edə bilməzlər. Ermənistan 28 il BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini yerinə yetirmədi və Qərb dövlətlərindən heç biri buna görə İrəvana təzyiq etmədi. BMT qətnamələri yerinə yetirilmədisə biz niyə bir qisim dövlətin "çağırışını" yerinə yetirməliyik?

İkinci variant: Hərbçilərimiz artıq Ermənistanla Qarabağı birləşdirən yolda yerləşiblər. Hansısa mərhələdə sivil etiraza fasilə versək belə nəticəni xeyrimizə dəyişmişik, azərbaycanlı hərbçilər yoldakı postda bölgəyə daxil olan və çıxan maşınları rahat şəkildə yoxlayacaqlar. Yoldan sivillər keçəcək, silah, sursat, mina və cinayətkarlar keçə bilməyəcək. Bundan sonra ermənilərin "yol bağlıdır" yalanı işləməyəcək. Yolu nəzarətə götürsək də, yataqların monitorinq məsələsi aktuallığını qoruyacaq.

Başqa variantlar da mümkündür. Əsas odur ki, yola enmişik və bölgəyə silah və mina daşıyan erməni separatçılar rahatlıqlarını itiriblər. Növbəti mərhələdə "yol bağlı deyil, nəzarət altındadır, sivillər və xəstələr istifadə edə bilərlər" tezisimizi sübutlarla, görüntülərlə beynəlxalq aləmə qəbul etdirməliyik".

***A.Kəlbiyev***

# "Heç bir güc Azərbaycanı təhdid edə bilməz" - Partiya sədri

***"Azərbaycanlı aktivistlər və ekologiya üzrə qeyri-hökumət təşkilatlarının (QHT) üzvləri tərəfindən Qarabağ iqtisadi rayonunda, Rusiya "bədməramlılarının" müvəqqəti nəzarətində olan yolun bir hissəsində, ekoloji terrora son qoyulması tələbi ilə keçirilən dinc aksiya on gündür ki, davam edir".***



Bu fikirləri "Unika"a açıqlamasında Təkamül Partiyasının sədri Teyyub Qənioğlu deyib. Onun sözlərinə görə, insanlığını hələ də itirməyən, regionumuzda baş verən hadisələrə, xüsusilə də, erməni faşitlərinin işğal etdiyi ərazilərimizdə 30 ilə yaxın müddətdə insanlığa qarşı törətdiyi vəşiliklərə, eləcə də, təbii sərvətlərimizin vəhşicəsinə istismarına obyektiv qiymət verən insanlar, azərbaycanlı aktivitlərin qeyd edilən hərəkətinə müsbət yanaşır. Guya Xankəndi və ətrafında məskunlaşan (çoxlarının qeyri-qanuni) bir ovuc ermənini guya "hümanitar fəlakətə" sürüklədiyini qətiyyətlə rədd edir. Ancaq təəssüf ki, türk düşmənçiliyinin gözlərini bağladığı, qulaqlarını kar etdiyi, özlərinin dünyanın müxtəlif ölkələrində törətdikləri soyqırımları, insanlığa qarşı cinayətləri "görməzlikdən gələn" Fransadakı, Kanadadakı, ABŞ-dakı, İrandakı və Laçın dəhlizinin harada yerləşdiyini bilməyən digər ölkələrdəki bəzi mənfur qüvvələr, adətlərinə xas şəkildə, yenə də, haqsız olaraq Azərbaycanı günahlandırmağa, ölkəmizə qarşı qarayaxmalara cəhdlər edirlər. Bu xüsusda sözdə "müsəlman qardaşlığından" bəhs edən, əməldə ermənidən betər erməni olan İran İslam Respublikası xüsusi canfəşanlıq, özü də, açıq-aşkar-göstərir".

Partiya sədri onu da bildirib ki, Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi möhtəşəm qələbəni, ərazilərimizin işğaldan azad edilməsini heç cür həzm edə bilməyən, regionumuzda yaranmış yeni reallıqları qəbul etmək istəməyən, öz vətəndaşlarının elementar insan haqlarını pozan İran, Qarabağda ilişib qalmış bir ovuc ermənin haqlarını müdafiə edir: "Bu xüsusda İrana xatırlatma: biz, azərbaycanlılar, 30 ildən çoxdur ki, İran dövlətinin, onun mollalarının, ölkəmizə qarşı ərazi iddialarını, Azərbaycanı "Şimali İran" adlandıraraq dövlətimizin azadlığını, süverenliyini əməldə qəbul etmək istəmədiyini, ərazilərimizin erməni faşitləri tərəfindən işğalına və 30 ilə yaxın işğal altında saxladığına hərtərəfli yardım göstərdiyini, işğal altında olan ərzilərimizdə bütün daşınar və daşınmaz əmlakımızı talan etdiyini və s. unutmamışıq, mehriban qonşuluq naminə dözmüşük. Ancaq hər şeydən göründüyü kimi, İran ölkəmizə qarşı düşmənçilini daha açıq şəkildə davam etdirir, Ermənistana, Qarabağda hələ də ilişib qalmış bir ovuc quldur-seperatçılara iqtisadi-siyasi və getdikcə artan həcimdə hərbi dəstək verir, onları Azərbaycana qarşı yeni təcavüzə təhrik edir. İran, sən ölkəmizə qarşı bu mənfur hərəkətlərinin bundan sonra da cavabsız qalacağını düşünürsən? Çevril, bir ətrafına, bir də ölkənin daxilllində baş verənlərə diqqət et. Heç bir güc Azərbaycanı təhdid edə bilməz".

# Naxçıvanda Prezidentin səlahiyyətli nümayəndəliyi təsis edildi



***Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi təsis edilib.***

”Unikal” xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı Fərman imzalayıb. Fərmana əsasən, “Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi haqqında Əsasnamə” təsdiq edilib.

Fərmanla müəyyən edilib, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən və birbaşa Azərbaycan Respublikasının Prezidentinə tabe olan Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi (bundan sonra - səlahiyyətli nümayəndə) rəhbərlik edir.

Eyni zamanda, səlahiyyətli nümayəndə Naxçıvan Muxtar Respublikasının ərazisində Azərbaycan Respublikasının Prezidentini təmsil edən vəzifəli şəxsdir və Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi səlahiyyətləri həyata keçirir.

Mərkəzi və yerli icra hakimiyyəti orqanları və digər dövlət qurumları Naxçıvan Muxtar Respublikasının ərazisində fəaliyyətlərini səlahiyyətli nümayəndə ilə əlaqələndirilmiş qaydada həyata keçirəcəklər.

Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etməlidir.

# Mədəniyyət nazirini o əvəz edəcək - Sərəncam

***Adil Qabil oğlu Kərimli Heydər Əliyev Mərkəzinin direktorunun birinci müavini vəzifəsindən azad edilib.***

”Unikal” xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb. Dövlət başçısının digər sərəncamı ilə Adil Kərimli Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini təyin olunub.

Azərbaycan Respublikasının mədəniyyət naziri təyin olunanadək həmin vəzifənin müvəqqəti icrası Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini Adil Qabil oğlu Kərimliyə həvalə edilib.



Adil Kərimli 22 oktyabr 1979- cu ildə Bakı şəhərində anadan olub. 1999-cu ildə Bakı Dövlət Universitetinin, Hüquq fakültəsinin bakalavr pilləsini bitirib. 2001-ci ildə Bakı Dövlət Universitetinin, Hüquq Fakültəsinin “Cinayət hüququ, cinayət prosesi və kriminalistika” ixtisaslaşması üzrə magistratura pilləsini bitirərək hüquq magistri elmi dərəcəsi alıb. 2007-ci ilin may ayında Bakı Dövlət Universitetinin Cinayət hüququ və kriminologiya kafedrasının dissertantı olaraq “Qəsdən adam öldürmə cinayətlərinin tövsifində motivin yeri və rolu” mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək, hüquq elmləri namizədi elmi dərəcəsinə layiq görülüb. A.Kərimli 2010-cu ildə Azərbaycanın ”Eurovision” yarışmasındakı nümayəndə heyətinin rəhbəri olub. O, 2012-ci ildən Heydər Əliyev Mərkəzinin direktorunun birinci müavini idi.

Vəkillər Kollegiyasının Rəyasət Heyətinin üzvüdür. Evlidir. İngilis və rus dillərini bilir. Ehtiyatda olan zabitdir.

# ANAMA sədrinin birinci müavini olacaq

***Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin İdarə Heyətinin tərkibi genişləndirilib.***

”Unikal” xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin yaradılması haqqında” 2021-ci il 15 yanvar tarixli 1251 nömrəli və “Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” 2021-ci il 2 fevral tarixli 1276 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə fərman imzalayıb.

Fərmanla Agentliyin İdarə Heyətinin üzvlərinin sayı artırılaraq 4 edilib. Əvvəl isə 3 üzvdən ibarət idi. Digər dəyişikliklə isə İdarə Heyətinin sədri müvəqqəti olmadıqda, onun səlahiyyətlərinin icrasını birinci müavini, birinci müavini müvəqqəti olmadıqda isə İdarə Heyəti sədrinin müəyyən etdiyi müavinlərindən biri həyata keçirəcək.

Bundan əvvəl isə İdarə Heyətinin sədri müvəqqəti olmadıqda, onun səlahiyyətlərinin icrasını İdarə Heyəti sədrinin müəyyən etdiyi müavinlərindən biri həyata keçirirdi.

# Prezident onu Naxçıvana səlahiyyətli nümayəndə təyin etdi



***Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin təyin edilməsi haqqında Sərəncam imzalayıb.***

”Unikal” xəbər verir ki, Sərəncamla Fuad Vahid oğlu Nəcəfli Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndə-

# Anar Kərimov nazir vəzifəsindən çıxarıldı



***Anar Qabil oğlu Kərimov Azərbaycan Respublikasının mədəniyyət naziri vəzifəsindən azad edilib.***

”Unikal” xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.

# Ermənistan XİN Moskvadakı üçtərəfli görüşdən imtina etdiklərini etiraf edib

***Ermənistan Xarici İşlər Nazirliyi rəsmi İrəvanın Azərbaycan, Rusiya və Ermənistan xarici işlər nazirlərinin dekabrın 23-də Moskvada keçirilməsi nəzərdə tutulan görüşdən imtina etdiyini etiraf edib.***

Bu barədə Ermənistan XİN-dən bildirilib. Buna bahanə kimi Laçın yolundakı vəziyyət göstərilib.

Qeyd edək ki, Rusiya XİN-dən bildirilib ki, dekabrın 23-də Moskvada Azərbaycan, Rusiya və Ermənistan xarici işlər nazirlərinin üçtərəfli görüşünün keçirilməsi planlaşdırılırdı. Amma Ermənistan görüşdə iştirakdan imtina edib.

Xatırladaq ki, Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarı əleyhinə Şuşadan keçən



Xankəndi-Laçın yolunda keçirilən etiraz aksiyası 11 gündür davam edir.

Şuşa ərazisində Rusiya sülhməramlılarının nəzarətində olan yolun bir hissəsində etiraz aksiyası azərbaycanlı aktivistlər və ekologiya üzrə qeyri-hökumət təşkilatlarının (QHT) üzvləri tərəfindən Qarabağ iqtisadi rayonunda ekoloji terrora son qoyulması tələbi ilə keçirilir. 2022-ci il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və “AzerGold” Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb.

Baş redaktor:
Zaur Əhməd

Turanbank” ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və “Futbol+” servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:1700

# Naxçıvan Ali Məclisi sədrinin bu səlahiyyətləri ləğv edildi

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin bir neçə səlahiyyəti ləğv edilib.***

”Unikal” xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Yerli icra hakimiyyətləri haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə fərman imzalayıb. Belə ki, fərmanın 3.1.2-ci yarımbəndindən“, Naxçıvan Muxtar Respublikasında isə həm də Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin tapşırıqlarını” sözləri çıxarılıb. Əsasnamənin əvvəlki variantında qeyd olunmuşdu ki, yerli icra hakimiyyətinin başçısı ona həvalə olunmuş vəzifələrin



yerinə yetirilməsinə görə Azərbaycan Respublikasının Prezidenti qarşısında şəxsən məsuliyyət daşıyır. Azərbaycan Respublikası Prezidentinin tapşırıqlarını, Naxçıvan Muxtar Respublikasında isə həm də Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin tapşırıqlarını yerinə yetirir. Dəyişiklikdən sonra isə yerli icra hakimiyyətinin başçısı ona həvalə olunmuş vəzifələrin yerinə yetirilməsinə görə Azərbaycan Respublikasının Prezidenti qarşısında şəxsən məsuliyyət daşıyır. Azərbaycan Respublikası Prezidentinin tapşırıqlarını tapşırıqlarını yerinə yetirəcək. Digər dəyişikliklə sənədin 3.1.22-ci yarımbəndinin ikinci cümləsi çıxarılıb. Fərmanın müvafiq bəndinin ikinci cümləsi isə belə idi: ”Naxçıvan Muxtar Respublikasında isə yerli icra hakimiyyətlərinin başçıları öz fəaliyyətləri haqqında ildə bir dəfədən az olmayaraq Azərbaycan Respublikasının Prezidentinə və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müəyyən etdiyi müddətlərdə ona hesabat verirlər”.

# Ölkə rəhbərləri İlham Əliyevi təbrik edirlər

**Tacikistan Prezidenti Emoməli Rəhmon Azərbaycan Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib.**

"Unikal" xəbər verir ki, məktubda deyilir: "Hörmətli İlham Heydər oğlu. Sizi doğum gününüz münasibətilə ən xoş arzularla ürəkdən təbrik edirəm. Dost Azərbaycan Sizin rəhbərliyinizlə tərəqqi və dinamik inkişaf yolunda inamla irəliləyərək sosial-iqtisadi və digər sahələrdə sanballı uğurlar qazanır, beynəlxalq arenada nüfuzunu artırır.

Tacikistanla Azərbaycan arasında tarixən formalaşmış dostluq, qarşılıqlı hörmət, etimad və anlaşma kimi dəyərlərə əsaslanan əməkdaşlıq münasibətlərinin ardıcıl olaraq möhkəmlənməsi məsələlərinə Sizin daimi diqqətinizi yüksək qiymətləndirirəm. Fürsətdən istifadə edib ölkələrimiz arasında ikitərəfli və beynəlxalq gündəliyin aktual məsələlərinə dair sıx birgə işimizi və dövlətlərarası konstruktiv dialoqu davam etdirməyə daim hazır olduğumuzu təsdiq etmək istərdim. Əziz dostum, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, əmin-amanlıq, ali dövləti fəaliyyətinizdə böyük uğurlar, qardaş Azərbaycan xalqına sülh, firavanlıq və tərəqqi arzu edirəm".



**Rusiya Federasiyasının Dağıstan Respublikasının rəhbəri Sergey Məlikov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb.**

"Unikal" xəbər verir ki, məktubda deyilir: "Hörmətli İlham Heydər oğlu. Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin. Sizi bütün dünyada görkəmli siyasi lider və diplomat, müdrik, uzaqgörən və vətənpərvər dövlət xadimi kimi tanıyırlar. Siz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin yolunu layiqincə davam etdirərək ölkə həyatının bütün sahələrində dərin dəyişikliklər aparmış, ictimai sabitliyi, respublikanın qarşıdakı illər üçün dinamik və mütərəqqi inkişafını təmin etmisiniz. Fəxr edirəm ki, Dağıstanın rəhbəri qismində ilk xarici səfərimi məhz qardaş Azərbaycan Respublikasına etmişəm.

Biz xalqlarımız arasında yaranmış çoxəsrlik dostluğu həqiqətən yüksək qiymətləndiririk. Səmimi-qəlbdən inanırıq ki, ortaq səylərimiz Dağıstan və Azərbaycan xalqları arasında dialoqun daha da genişlənməsinə və qarşılıqlı hörmətin artmasına şərait yaradacaq. Rəsul Həmzətovun Bakını xatırlayaraq yazdığı şeirlərində olduğu kimi, qoy Xəzərin möhtəşəm dalğaları bizim əbədi qardaşlığımızdan danışsın.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, tükənməz enerji, firavanlıq arzulayır, Yeni ildə ən xoş diləklərimi çatdırıram".

**Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb.**

"Unikal"ın xəbərinə görə, məktubda deyilir: "Hörmətli İlham Heydər oğlu. Doğum gününüz münasibətilə səmimi təbriklərimi və xoş arzularımı qəbul edin. Güclü və gündən-günə firavanlaşan dövlət qurulması, əhalinin rifahının və ölkənin beynəlxalq arenada nüfuzunun artmasının təmin edilməsində Azərbaycanın sanballı uğurları Sizin Vətənin mənafelərinə sədaqətli xidmətinizin, uzaqgörən siyasətinizin və dövlət başçısı vəzifəsində şəksiz liderliyinizin əyani sübutudur. Qazaxıstanda Sizi etibarlı dost və Qazaxıstan-Azərbaycan münasibətlərinin daha da dərinləşməsinə səmimi yanaşan görkəmli siyasi xadim kimi tanıyırlar. Əminəm ki, birgə səylərimiz sayəsində biz strateji tərəfdaşlığımızı və müttəfiqliyimizi daha da möhkəmləndirərək ikitərəfli əməkdaşlığı yeni zirvələrə yüksəltməyə nail olacağıq. Hörmətli İlham Heydər oğlu, Sizə qardaş Azərbaycan xalqının rifahı naminə ali dövləti fəaliyyətinizdə bundan sonra da uğurlar və yeni-yeni nailiyyətlər arzu edirəm".

**Çin Xalq Respublikasının Sədri Si Cinpin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib.**

"Unikal" xəbər verir ki, məktubda deyilir: "Hörmətli cənab Prezident. Doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan şərəf duyuram. Son illər ərzində Çin-Azərbaycan münasibətləri davamlı və sabit inkişaf edir, müxtəlif sahələrdə əməkdaşlıq uğurla və səmərəli şəkildə genişlənir. Bu ilin sentyabrında Özbəkistanın Səmərqənd şəhərində keçirdiyimiz uğurlu görüşdə ikitərəfli münasibətlərin inkişafına, beynəlxalq arenada qarşılıqlı fəaliyyətin möhkəmlənməsinə və "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində əməkdaşlığın dərinləşməsinə dair mühüm razılaşmalar əldə edildi. Mən Çin-Azərbaycan münasibətlərinin inkişafına böyük əhəmiyyət verirəm, ölkələrimizin və xalqlarımızın rifahı naminə dostluq və əməkdaşlıq münasibətlərinin davamlı, uzunmüddətli inkişafına kömək üçün Sizinlə birlikdə çalışmağa hazıram. Sizə möhkəm cansağlığı və firavanlıq diləyirəm".

**Belarus Prezidenti Aleksandr Lukaşenko Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb.**

"Unikal" xəbər verir ki, təbrikdə deyilir: "Hörmətli İlham Heydər oğlu.Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Sevindirici haldır ki, Sizin iyirmi il bundan əvvəl müdrikcəsinə söylədiyiniz "Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram" sözləriniz gerçəyə çevrildi. Mən bilirəm ki, Azərbaycan xalqı dövlətin iqtisadi və sosial inkişafına, onun xarici siyasi maraqlarının müdafiəsinə, vətəndaşların rifahının yüksəlməsinə yönəlmiş səylərinizi yüksək qiymətləndirir. Qardaş Azərbaycan Sizin bacarıqlı və qətiyyətli rəhbərliyiniz sayəsində regionda və möhkəmlənməkdə olan türk dünyasında getdikcə daha mühüm rol oynayır. Belarusun da iştirakçısı olduğu Qoşulmama Hərəkatında uğurlu sədrlik Bakıya beynəlxalq nüfuz və dərin hörmət qazandırıb. Bizim görüşlərimizi həmişə məmnunluqla xatırlayıram. Aramızda dostluq və etimad əsasında yaranmış şəxsi münasibətləri, konstruktiv ünsiyyəti və hər ikimizin sıx qarşılıqlı faydalı əməkdaşlığa can atmağımızı yüksək dəyərləndirirəm. Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, çoxşaxəli və məsul fəaliyyətinizdə yeni uğurlar arzu edirəm".

## Emin Əmrullayev institut direktorları ilə görüşüdü



***Elm və təhsil naziri Emin Əmrullayev Elm və Təhsil Nazirliyinin tabeliyindəki elmi-tədqiqat institutlarının direktorları ilə görüşüb.***

Nazirlikdən bildirilib ki, görüşdə elmin idarəolunması sahəsində əsas çağırışlar və nazirliyin bu sahədə görəcəyi işlər müzakirə mövzusu olub. Görüş çərçivəsində elm və təhsilin inteqrasiyasında beynəlxalq təcrübənin nəzərə alınması, elmin yeni maliyyələşmə mexanizmləri, elmi-tədqiqat institutları ilə birgə ali təhsil müəssisələrinin ikili magistratura proqramlarının hazırlanması ətrafında müzakirələr aparılıb.

Eyni zamanda, yeni qrant mexanizmlərinin yaradılması, elmi nəşrlərin keyfiyyət meyarları, 2023-cü təqvim ilində elmi-tədqiqat institutlarının qarşısında duran əsas problemlər, onların daha çevik həlli məsələləri ilə bağlı fikir və rəylər səsləndirilib.

Görüş zamanı elmi-tədqiqat institutlarının nəşrləri ilə bağlı təqdimat da nümayiş etdirilib.

## Məktəbdə halı pisləşən şagird vəfat etdi



***Paytaxtdakı 285 nömrəli tam orta məktəbin VII sinif şagirdinin (müvafiq səbəblərə görə şagirdin adı qeyd olunmur) səhhətində yaranan problemlə bağlı halı pisləşib.***

"Unikal" xəbər verir ki, bu barədə məktəbdən məlumat verilib. Bildirilib ki, məktəbin tibb işçisi tərəfindən dərhal həkim tövsiyəsinə uyğun olaraq (məktəbli səhhətindəki problemə görə həkim nəzarətində idi) müdaxilə edilib, ilkin tibbi yardım göstərilib: "Məktəb rəhbərliyi tərəfindən təcili-tibbi yardım çağırılıb, şagirdin ailəsinə və hüquq-mühafizə orqanlarına məlumat verilib. Ancaq bunlara baxmayaraq təəssüflər olsun ki, şagird təcili-tibbi yardım maşını ilə xəstəxanaya aparılarkən yolda vəfat edib".

## Lavrov Ceyhun Bayramovla Laçın dəhlizindən danışdı



***Rusiyanın xarici işlər naziri Sergey Lavrovla Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov arasında telefon danışığı olub.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Xarici İşlər Nazirliyinin məlumatında deyilir.

Məlumata görə, nazirlər Laçın dəhlizinin bağlanması ilə bağlı vəziyyəti və Qarabağın dağlıq hissəsindəki filiz yataqlarının işlənməsinə dair tərəflərin fikir ayrılığını müzakirə ediblər.

"Rusiya sülhməramlı kontingentinin məsuliyyət zonasındakı Laçın dəhlizinin bağlanması və tərəflər arasında regiondakı filiz yataqlarının işlənməsinə dair fikir ayrılıqları səbəbindən gərginləşən vəziyyət müzakirə edilib. Lavrov üçtərəfli qaydalara ciddi riayət olunmasının vacibliyini vurğulayıb. Xatırladıb ki, Dağlıq Qarabağla Ermənistan arasında Laçın dəhlizi boyunca maneəsiz əlaqənin təmin edilməsinə dair sazişlər imzalanıb", - deyə nazirlikdən bildiriblər.

# "Dövlət orqanlarında xalqa bağlı insanlar təmsil olunmalıdır"

## Sərdar Cəlaloğlu: "Vətəninə-xalqına bağlı olmayan, korrupsiya ilə məşğul olanlar dövlət vəzifəsində təmsil olunsa, xalq bir o qədər əziyyət çəkəcək"

***Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu "Unikal"a müsahibə verib. O, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun istefa verməsindən, Naxçıvandakı vəzifəli şəxslərin həbsindən, Azərbaycanın Qarabağ iqtisadi rayonunda faydalı qazıntı yataqlarının qanunsuz istismarı əleyhinə Xankəndi-Laçın yolunda keçirilən etiraz aksiyasından və s. məsələlərdən danışıb.***

***-Sərdar bəy, dekabrın 21-də Vasif Talıbov özünün müraciəti ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsindən azad edilib. V.Talıbovun istefasını necə qiymətləndirirsiz?***

-Vasif Talıbovun mürəkkəb coğrafi ərazidə yerləşən Naxçıvan Muxtar Respublikasına rəhbər qoyulmasının özü çox suallar doğururdu. Ona görə ki, o vaxt Vasif Talıbovun nəinki Naxçıvana, kiçik bir rayona rəhbər vəzifəyə layiq keyfiyyətləri yox idi. O, 30 ilə yaxın rəhbərlik dövründə Naxçıvan Muxtar Respublikasını şəxsi təsərrüfat vəziyyətinə saldı. Belə ki, bütün qohumlarını rəhbər vəzifələrə yerləşdirdi, Naxçıvan camaatına divan tutdu, muxtar respublikanın büdcəsini dağıtdı. Həmçinin, orada yaşayanları dövlətdən narazı saldı, insanlar muxtar respublikadan getdi. Naxçıvana düşmən olan qüvvələrlə Azərbaycan hakimiyyətinin apardığı siyasətə zidd siyasət apardı. Naxçıvanı tədricən Azərbaycanın suverenliyindən çıxarmağa və orada müstəqil dövlət yaratmağa cəhd göstərdi. Bu ərazi Türkiyə üçün strateji əhəmiyyətə malikdir. Baş verən hadisələrlə bağlı Türkiyədə də ciddi narahatlıqlar var idi. Dəfələrlə Türkiyədə olanda orada görüşdüyüm yüksək rütbəli şəxslərdən Naxçıvanda baş verənlərlə bağlı müəyyən iradlar eşitmişəm. O baxımdan, bu, gecikmiş addım idi. Ümumiyyətlə, adamların 25-30 il vəzifədə qalması Azərbaycan dövlətinin ən böyük qüsurlarından biridir. Həmin şəxslər elə-belə uzun müddət vəzifədə qalmırlar. Bunları vəzifədə saxlayan qüvvələr var. İndi onların haqqında ortaya bu qədər cinayət işləri çıxıb. Onların arasında adam öldürməkdən tutmuş, kütləvi halda insan hüquqlarının pozulması, dövlət büdcəsinin dağıdılması, hakimiyyətə tabe olmamağa qədər hər cür cinayətlər var. Baxaq görək ki, hüquq-mühafizə orqanları Vasif Talıbov və onun klanı ilə bağlı hansı qərarları qəbul edəcək. Əsas məsələ onun işdən çıxarılması deyil. Vacib olan onun elə bir qaydada məsuliyyətə cəlb olunmasıdır ki, bundan sonra kimsə Vasif Talıbovun yolunu tutmasın. Yoxsa, sabah Naxçıvanda kimsə rəhbər olsa, eyni cinayətkar yolla gedəcək.

***-Bundan sonra Naxçıvanın idarəedilməsində hansı dəyişikliklərin olması gözlənilir?***

-Orada strukturun dəyişdirilməsindən daha vacib məsələ düzgün kadr siyasətinin həyata keçirilməsidir. Naxçıvan Azərbaycanın başqa yerlərindən fərqli olaraq çox mühüm strateji əhəmiyyətə malikdir. Belə ki, bizə qarşı düşmən olan ölkələr - İran və Ermənistanla sərhəddə yerləşir. Ora xalqını, millətini sevən, siyasi cəhətdən ayıq-sayıq şəxs təyin edilməlidir ki, Naxçıvan Muxtar Respublikası Azərbaycan və Türkiyə ittifaqı üçün problem yaratmasın. Bu mürəkkəb coğrafiyada düzgün siyasət aparılsın, nəinki Azərbaycandan ayrılmasın, daha sıx formada bağlansın.

***-Necə düşünürsüz, qarşıdakı dönəmdə Naxçıvanın muxtar respublika statusu ləğv edilə bilərmi?***

-Muxtar respublika statusu məsələsini kadrların yanlış siyasəti ilə ələqələndirmək düzgün deyil. Muxtar respublika statusu Azərbaycan Konstitusiyası ilə müəyyən edilib. İndiki halda bu statusun qalması məqsədəmüvafiqdir. Ona görə ki, Naxçıvan anklav şəraitindədir, Azərbaycanla birbaşa quru sərhədləri yoxdur. Orada Azərbaycan hakimiyyətinin, konstitusiyasının imkan verdiyi tərzdə müstəqil qərarlar qəbul etməyə böyük ehtiyac var. Bu baxımdan, orada muxtariyyətin ləğv edilməsi vacib deyil. Türkiyə və Azərbaycan ittifaqı üçün lazımdırsa, aradan qaldırılmalıdır. Amma bu birliyə problem yaratmırsa, qalsın. Naxçıvanda baş verənlər yanlış kadr siyasəti, özbaşınalıq və bu günə qədər orada dövlət nəzarətinin həyata keçirilməməsi ilə bağlıdır. Nazirliklərin heç birini Naxçıvan Muxtar Respublikasında nəzarət həyata keçirməyə qoymayıblar. Orada heç vaxt xalqın şikayətlərinə, narazılıqlarına baxan olmayıb.

***-Məlum olduğu kimi, Naxçıvanda bir neçə vəzifəli şəxs həbs olunub. Onlardan təkcə üç məmurun "yediyi" pul yarım milyard manata yaxındır. Necə düşünürsüz bundan sonra orada həbslər davam edəcəkmi?***

-Naxçıvanda həbslər genişlənməlidir. Orada yarım milyard boş şeydir, Vasif Talıbovun klanı hardasa, 15-20 milyarddan artıq pul mənimsəyib. Bu baxımdan, daha çox adam məsuliyyətə cəlb olunmalıdır. Demək olar ki, Naxçıvanın bütün ərazisi bir ailənin əlinə keçib. Hara baxırsan, onların zavodu, fabriki, evləri, bağları və s-dir. Orada başqa adamlara məxsus heç nə yoxdur. Naxçıvanda o qədər dövlət və vətəndaş əleyhinə cinayətlər olub ki, onların heç biri açılmayıb, cinayətkarların əhatə dairəsi müəyyən edilməyib. Bu günə qədər fərdi məsuliyyətləri də müəyyən olunmayıb. Orada tək korrupsiya əleyhinə deyil, bu günə qədər üstü açılmamış, həyata keçirilən cinayətlərlə bağlı yeni istintaq işləri aparılmalıdır. Kim günahkardırsa, cəzasına çatmalıdır.



"Naxçıvanda o qədər dövlət və vətəndaş əleyhinə cinayətlər olub ki, onların heç biri açılmayıb, cinayətkarların əhatə dairəsi müəyyən edilməyib"

***-Sərdar bəy, bəzən belə fikirlər də səsləndirilir ki, gələn il referendumun keçirilməsi gözlənilir. Referendumla Milli Məclisdə deputat yerlərinin artırılması gündəmə gələ bilər. Sizcə, bu olacaqmı?***

-Azərbaycanda düşdüyümüz problemlərin sayı kəmiyyətlə deyil, keyfiyyətlə bağlıdır. Elə indiki sayda da deputat bəs edir. Yüksək keyfiyyətli şəxslər seçilərsə, parlament Azərbaycan dövləti üçün yaxşı işlər görər. Məsələ burasındadır ki, keyfiyyətsiz adamların 100 nəfər olmasındansa, 10 nəfər olsun. Belələrinin sayı nə qədər az olarsa, bu, dövlətin xeyrinədir. Yəni, vətəninə-xalqına bağlı olmayan, korrupsiya ilə məşğul olanlar dövlət vəzifəsində təmsil olunsa, xalq bir o qədər əziyyət çəkəcək. Hələlik Azərbaycanda demokratik seçkilər keçirilmədiyi üçün deputat yerlərinin sayı artırılacağı təqdirdə, daha çox saxtakar adam parlamentdə təmsil olunacaq. Bu da xalqın istismar olmasına, insan hüquqlarının pozulmasına və dövlətin daha çox nüfuzdan düşməsinə gətirib çıxaracaq. Bizi ilk növbədə maraqlandıran bu olmalıdır ki, Azərbaycanın dövlət orqanlarında xalqa bağlı insanlar təmsil olunsun. Yoxsa, sayın elə bir əhəmiyyəti yoxdur. Keyfiyyətsiz insanların sayı az olarsa, ziyan da az olar. Bu baxımdan, keyfiyyətə fikir verməyib kəmiyyəti artırmaq istəsəniz, təhlükəni artırmış olursunuz.

***-Gündəmdə olan əsas məsələlərdən biri də ekofəalların Xankəndi-Laçın yolunda aksiya keçirməsidir. On gündən çoxdur ki, aksiya davam edir. Bunu necə qiymətləndirirsiz?***

-Azərbaycanın BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyev Nyu-Yorkda BMT Təhlükəsizlik Şurasının iclasında bununla bağlı çox gözəl bir çıxış edib. Həmin çıxışı alqışlayıram, müdafiə edirəm. Çıxışda Laçın dəhlizində baş verənlərə hərtərəfli, geniş, siyasi, hüquqi qiymət verilib. Xankəndinin demokratik üsulla Azərbaycana qaytarılmasını alqışlayıram. Bu, iqtidarın çox ağıllı addımıdır. Bununla sübut edirik ki, bütün problemləri hərbi yolla həll edə bilərik, amma etmirik. Daha çox dinc yollara üstünlük veririk. Təbii ki, dinc yolla məqsədimizə çatmasaq, Azərbaycan hərbi, diplomatik, siyasi yollardan da istifadə etməlidir. Dinc aksiyalara siyasi, diplomatik və hərbi müstəvidə dəstək verilməlidir.

***- Ermənistan-Azərbaycan sülh müqaviləsinin imzalanması üçün danışıqlar davam etdirilir. Yaxın zamanlarda sülh müqaviləsi imzalana bilərmi?***

-Dağlıq Qarabağ problemi həll edilməyənə qədər və Rusiya sülhməramlı qüvvələri Azərbaycandan çıxmayana kimi Ermənistanla Azərbaycan arasında sülhdən danışmaq gülüncdür. Ermənistan Azərbaycanı dövlət kimi tanımalı və sülh müqaviləsi imzalanmalıdır. Rusiya bu məsələdə inadkarlıq göstərir. Azərbaycan da bununla bağlı Rusiyaya təzyiqlər etmir. Ona görə də bu məsələ uzanacaq.

***Anar Kəlbiyev***

# Anar Kərimov üçün gözlənilən son

## Mədəniyyət nazirinin işdən azad edilməsinin pərdəarxasında nələr var?

***Yola salmaq üzrə olduğumuz həftənin ən önəmli iddialarından biri mədəniyyət naziri Anar Kərimovla bağlı ortaya atıldı. Öncə onun vəzifəsindən azad edildiyi barədə xəbər yayıldı, ardınca isə Mədəniyyət Nazirliyindən yayılan rəsmi məlumatda Kərimovun tanınmış heykəltəraş, Xalq rəssamı Ömər Eldarovla görüş keçirdiyi bildirildi.***

Əslində nazirliyin məlumatı Kərimovla bağlı ortaya atılan iddiaya dolayı cavab kimi də qiymətləndirmək mümkün idi - yəni Anar müəllim iş başındadır.

Lakin cəmi bir gün sonra bu iddia təsdiqini tapdı: Prezidentin sərəncamı ilə A.Kərimov mədəniyyət naziri postundan kənarlaşdırıldı. Bundan başqa, ölkə başçısının sərəncamı ilə Adil Qabil oğlu Kərimli Heydər Əliyev Mərkəzinin direktorunun birinci müavini vəzifəsindən azad edildi, dövlət rəhbərinin digər sərəncamı ilə o, mədəniyyət nazirinin birinci müavini təyin olundu. Bununla yanaşı, mədəniyyət naziri təyin olunanadək həmin vəzifənin müvəqqəti icrası da mədəniyyət nazirinin birinci müavini Adil Kərimliyə həvalə edilib.



Xatırladaq ki, Anar Kərimov Azərbaycan Prezidentinin 5 yanvar 2021-ci il tarixli sərəncamı ilə mədəniyyət naziri vəzifəsinə gətirilib. İndiyədək fəaliyyətilə diqqət çəkə bilməyən nazir dəfələrlə tənqidlərə tuş gəlib və bir neçə dəfə onun postundan uzaqlaşdırılması ilə bağlı təkliflər səsləndirilib.

Səbəb aydın idi - adıçəkilən nazirin fəaliyyətində ciddi nöqsanlara yol verdiyi, Mədəniyyət Nazirliyində Əbülfəs Qarayev dövrünə xas zərərli "ənənələrin" hələ də öz mövcudluğunu qoruyub saxladığı hamının gözü qarşısında aydın həqiqət idi.

Birinci dəfə 2020-ci ildə nazirlikdə DTX əməliyyat keçirəndə və ardınca Əbülfəs Qarayev vəzifədən çıxarılandan cəmi iki il sonra ikinci dəfə bu yaxınlarda Mədəniyyət Nazirliyində növbəti antikorrupsiya əməliyyatı baş tutdu, nazirin birinci müavini vəzifəsindən kənarlaşdırıldı, nazirliyin Təchizat və əmlak şöbəsinin müdiri isə həbs edildi. Beləliklə, bir daha aydınlaşdı ki, Kərimovun fəlaiyyətilə bağlı tənqidi fikirlər heç də az deyil və o, iki ilə yaxındır nazir postunda işləməsinə baxmayaraq etimadı doğrultmağı bacarmayıb. Yəni, Mədəniyyət Nazirliyində maliyyə cinayətləri, yeyintilər baş verməyə davam edib.

Belədə Anar müəllimin vəzifəsindən azad edilməsi ilə bağlı qərara təəccüblənməmək lazımdır. Bu qərarın cəmiyyətdə, ictimai rəydə sürpriz kimi qarşılanmaması da aydın həqiqəti gözlər önünə sərir: onun nazir olaraq fəaliyyəti mənfi qiymətləndirilir və bu baxımdan tutduğu postdan kənarlaşdırılması məntiqli addım olaraq qəbul edilir.

Onu da unutmayaq ki, son günlər nazirliklə Dövlət Kukla Teatrı arasında ixtilaf da cəmiyyətdə həm geniş rezonans doğurdu, həm də Kərimov və ətrafı barədə neqativ təəssüratları daha da gücləndirdi. İxtilafın kökündə isə nazirliyin adıçəkilən teatrda gözlənilmədən yoxlama keçirmək istəməsi dayanırdı. Buna isə rejissor Səidə Haqverdiyevanın mətbuatda səsləndirdiyi iddiaların səbəb olduğu bildirilirdi. Qeyd edək ki, S.Haqverdiyevanın sözlərinə görə, mədəniyyət nazirinin sabiq birinci müavini Elnur Əliyev Dövlət Kukla Teatrında biletlərin qiymətinin artırılmasını təklif edib. Keçmiş məmur təklifini Kukla Teatrının ötən ilin dekabr ayında keçirilən 90 illik yubleyində səsləndirib. Rejissor bildirib ki, teatrın direktoru Rəşad Əhmədzadə təklifə etirazını bildirib. Bu isə Elnur Əliyevin xoşuna gəlməyib. Həmin görüşdən sonra teatrın illik plan proqnozu 50 faiz artırılıb. Ardınca yoxlama aparılmağa qərar verilməsi, bu məqsədlə komissiya yaradılması və təftişin qərəzli aparıldığı aydınlaşdı. Media və cəmiyyət bu məsələdə Dövlət Kukla Teatrının kollektivi ilə həmrəylik göstərdi. Ən azından ona görə ki, özü DTX-nin məlum əməliyyatından sonra vəzifəsindən kənarlaşdırılan birinin iradəsilə ölkənin ən çalışqan, fədakar teatrlarından birində yeyinti axtarmaq ictimai vicdanda qəbul görmədi...

Əvəzində Mədəniyyət Nazirliyinə, onun rəhbərliyinə qarşı mənfi rəy cəmiyyətdə bir az əvvəl də vurğuladığımız kimi daha da gücləndi.

Biz hələ Kərimovun iki ilə yaxınlaşan nazir fəaliyyəti dövründə keçirilən tenderlərin şəffaflığı, obyektivliyi ilə bağlı mətbuatda özünə yer alan iddia və ittihamları, ümumiyyətlə isə bir çox baxımdan Əbülfəs Qarayev dövrünə dair "iş prinsiplərinin" qüvvədə qaldığı yönündə tənqidləri demirik.

Bütün bunları ümumiləşdirdikdə Anar Kərimovun vəzifəsindən azad edilməsi təəccüblü olmadığı kimi ölkə rəhbərliyinin fəaliyyətini yeni zamana və reallıqlara uyğun qurmayan, göstərilən etimadı doğrultmayan məmurlara qarşı güzəştsiz davranışının, prinsipial mövqeyinin növbəti göstəricisidir. Post Qarayev zamanında Mədəniyyət Nazirliyində gərəkli "təmizləmələrin" aparılmaması, rüşvət və korrupsiya hallarının davam etməsi adıçəkilən nazirlikdə təxminən iki il sonra yeni rəhbər dəyişikliyini qaçılmaza çevirdi.

Ümid edək ki, bundan sonra Mədəniyyət Nazirliyinin düşdüyü "qara zolaqdan" çıxması üçün sözün həqiq mənasında yeni səhifə açılacaq...

***Sənan Mirzə***



## Bəxtiyarla bağlı aksiya çağırışlarına DİN-dən reaksiya

***Bakıda bir qrup şəxs ictimai fəal Bəxtiyar Hacıyevin həbsinə etiraz əlaməti olaraq etiraz aksiyası keçirəcəkləri ilə bağlı sosial şəbəkələrdə çağırışlar edib.***

"Qafqazinfo" xəbər verir ki, onların aksiya ilə bağlı müraciətinə Bakı Şəhər İcra Hakimiyyətindən cavab verilib. Bildirilib ki, sözügedən yerdə aksiya məqsədəmüvafiq deyil.

Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətinin rəisi Ehsan Zahidov məsələ ilə bağlı aşağıdakı suallara da aydınlıq gətirib:

Bir qrup şəxs sosial şəbəkələrdə çağırış edərək dekabrın 23-də Fəvvarələr meydanında aksiya təyin etdiklərini bildirib. Qeyd olunan aksiyanın keçirilməsinə imkan veriləcəkmi?

- Aidiyyəti dövlət qurumları ilə razılaşdırılmamış hər hansı aksiyanın keçirilməsinə cəhd edilərsə, bu qanunsuz hesab olunacaq və qarşısının alınması üçün müvafiq tədbirlər görüləcək.

- Onlar arasında hüquq müdafiəçiləri və ictimai fəallar da var...

- Kimliyindən asılı olmayaraq, razılaşdırılmadan aksiya təşkil edənlər qanunsuz aksiyanın iştirakçılarıdır. Ona görə də belə bir aksiyanın keçirilməsinə cəhd edənlərə qarşı da qanunsuz aksiya iştirakçısı kimi tədbir görüləcək.

## Bu ölkələrdən quş əti gətirilməsinə məhdudiyyət qoyuldu

***Dörd ölkənin bəzi vilayətlərindən Azərbaycana quş əti və məhsullarının gətirilməsinə məhdudiyyət qoyulub.***

Bu barədə "Unikal"a Azərbaycan Qida Təhlükəsizliyi Agentliyindən (AQTA) məlumat verilib.

Bildirilib ki, Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (WOAH) rəsmi məlumatına əsasən, ABŞ-ın Ayova və Missuri ştatlarında, Almaniyanın Türingiya və Saksoniya vilayətlərində, Macarıstanın Haydu-Bihar inzibati ərazi vahidində və Çexiyanın Orta Çexiya diyarında yüksək patogen quş qripi xəstəliyi qeydə alınıb.

Respublika ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması məqsədilə qeyd olunan ərazilərdən WOAH-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nə əsasən, zonalaşma prinsipi nəzərə alınmaqla, diri quş və inkubasiya yumurtalarının, quş ətinin, tərkibində quş emalı məhsulları olan quş ətindən və bütün növ quşçuluq məhsulundan alınan hazır ət məhsullarının (quş qripi viruslarının məhv edilməsini təmin edən termik emala məruz qalan mallar istisna olmaqla), quş yemləri və quş üçün yem əlavələrinin (bitki mənşəli, kimyəvi və mikrobioloji sintez yolu ilə alınmış yemlər və yem əlavələri istisna olmaqla), quşların saxlanması, kəsilməsi və emalı üçün istifadə olunmuş avadanlıqların idxalına və ölkə ərazisindən tranzit daşınmasına müvəqqəti məhdudiyyət tətbiq olunub.

Eyni zamanda nəzarət tədbirlərinin gücləndirilməsi məqsədilə ABŞ-ın Ayova və Missuri ştatlarından, Almaniyanın Türingiya və Saksoniya vilayətlərindən, Macarıstanın Haydu-Bihar inzibati ərazi vahidindən və Çexiyanın Orta Çexiya diyarından gələn, yaxud tranzitlə keçən nəqliyyat vasitələri ilə bağlı müvafiq tədbirlərin görülməsi üçün Azərbaycanın Dövlət Gömrük Komitəsinə müraciət olunub.



## Nazirlik təhsil krediti ilə bağlı tələbələrə müraciət edib

***Elm və Təhsil Nazirliyinin təklifinə əsasən Nazirlər Kabinetinin müvafiq Qərarı ilə "Təhsil Tələbə Krediti Fondunun vəsaiti hesabına təhsil tələbə kreditlərinin verilməsi Qaydası"nda əlavə və dəyişikliklər edilib.***

Nazirlikdən "Unikal"a bildirilib ki, qərara əsasən aşağıda qeyd edilmiş daha iki sosial baxımdan həssas əhali qrupuna aid kateqoriyadan olan tələbələr də Təhsil Tələbə Krediti Fondunun vəsaiti hesabına sosial təhsil tələbə krediti ala biləcəklər:

Ailə başçısını itirməyə görə əmək pensiyası alan tələbələr;

Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak edərək "Müharibə veteranı" adı almış tələbələr.

Qeyd edilən dəyişikliyə qədər mövcud qanunvericiliyə əsasən sosial təhsil tələbə kreditlərinin əhatə dairəsi aşağıdakı kimi idi:

Ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvləri;

Orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslər;

Hər iki valideyni (tək valideyni olduqda isə həmin şəxs) aşağıda qeyd olunan kateqoriyaların hər hansı birinə aid olanlar:

Orqanizmin funksiyalarının 61-80 və ya 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslər;

İşsiz kimi qeydiyyatda olanlar;

Yaşa görə əmək pensiyası alanlar;

Yaşa görə sosial müavinət alanlar.

Qeyd edək ki, 2022-2023-cü tədris ilinin payız semestri üzrə təhsil tələbə krediti üçün müraciətlərin qəbulu prosesi davam edir. Təhsil krediti almaq istəyən tələbələr www.e-ttkf.edu.az üzərindən elektron müraciət edə bilərlər.

## Sülhməramlıların maşınları növbəti dəfə Laçın yolundan keçdi

***Şuşadan keçən Xankəndi-Laçın yolunda Rusiya sülhməramlılarına məxsus təminat avtomobillərinin hərəkət etməsinə növbəti dəfə şərait yaradılıb.***

"Unikal" xəbər verir ki, nəqliyyat vasitələri maneəsiz şəkildə hərəkət edib.

Qeyd edək ki,dünən həmçinin, Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) 1 xəstənin həkim və tibb bacısının müşayiəti ilə Xankəndidən Ermənistana aparılması üçün Azərbaycana tərəfinə müraciət edib. Aksiya iştirakçıları Laçın-Xankəndi yolundan Beynəlxalq Qırmızı Xaç Komitəsinə məxsus avtomobillərin Xankəndidən Laçın istiqamətinə maneəsiz keçməsinə şərait yaradıblar.

Xatırladaq ki, dekabrın 4-dən etibarən azərbaycanlı eko fəallar, ictimaiyyət nümayəndələri sülhməramlıların postu yaxınlığında etiraz aksiyası keçirirlər. Aksiyada etiraz edənlərin əsas tələbləri Rusiya sülhməramlılarının komandan Andrey Volkovun gəlməsi, azərbaycanlı mütəxəssislərin montorinq aparılması üçün lazımi şərait yaradılması, ermənilərin Azərbaycan torpaqlarında ekoloji terrora son qoyulması, Ermənistanla sərhəddə Laçın istiqamətində ayrıca sərhəd və gömrük nəzarəti postlarının yaradılması, Azərbaycan ərazisinə qanunsuz silah daşınmasının qarşısının alınmasıdır.

# İntiqam Babayev üçün böyük təhlükə

## Sabiq nazir müavininin cəmi 9 ay əvvəl təyin edildiyi vəzifədən uzaqlaşdırılması ilginc iddialara yol açıb

***Nazirlər Kabineti Aparatının Sosial məsələlər şöbəsinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə iş sektorunun müdiri İntiqam Babayev tutduğu vəzifədən azad edilib.***

Bu barədə yerli mediada yer alan məlumatda bildirilirdi ki, Babayev həmin vəzifəyə 2022-ci ilin martında təyin olunmuşdu. Onun cəmi 9 ay sonra sözügedən postdan kənarlaşdırılması maraq doğurur.

Xatırladaq ki, Babayev 2000-ci ildən 2021-ci ilin noyabrına qədər gənclər və idman nazirinin müavini vəzifəsində işləyib. Keçmiş nazir müavininin bu postdan uzaqlaşdırılmasının ardınca barəsində ilginc iddialar ortaya atılmışdı. Həmin iddiaların ortaya çıxması isə səbəbsiz deyildi. Məsələ burasındadır ki, sabiq nazir müavininin bu postu tutduğu müddətdə çoxsaylı nöqsanlara yol verdiyi bildirilirdi. Misal üçün, Gənclər və İdman Nazirliyində (AGİN) QHT-lərlə və idman federasiyalarla işi kurasiya edən Babayevin hansısa (!) səbəbdən bir neçə deputatın himayəsindəki qeyri-hökumət təşkilatlarını böyük bir "səxavət"lə maliyyələşdirdiyi bildirilirdi. Mediada həmin deputatların adları da sadalanmış, lakin qəribədir ki, nə həmin millət vəkilləri, nə də Babayev bu iddialara münasibət bildirmək ehtiyacı hiss eləməmişdilər.



Bundan başqa, eks-müavinin yenə eyni vəzifədə olarkən ayrı-ayrı şəhər və rayonlarda yaradılan Gənclər Evlərini də nəzarətində saxladığı deyilir və əlavə edilirdi ki, həmin Gənclər Evlərinin fəaliyyətinin maliyyələşdirilməsi adı altında isə böyük məbləğdə pullar "silinib". Onun postda olduğu müddətdə iri məbləğdə pulların təyinatı üzrə xərclənmədiyinə dair iddialar fonunda Babayevin özünə dəbdəbəli həyat və geniş biznes qurduğu barədə xəbərlərə isə təəccüblənməmək lazımdır. Belə görünür, məcazi mənada "havaya sovrulduğu" deyilən pullar əslində bu dəbdəbəli həyat, təmtəraqlı mülklər, iri biznes üçün qaynaq rolunu oynayıb. Onu da vurğulayaq ki, Babayev barəsində çoxsaylı korrupsiya iddiaları son illərdə xüsusilə intensivləşmişdi. Məsələn, 2018-ci ildə Gənclər və İdman Nazirliyi Qəbələ rayonunda ənənəvi keçirilən "Tarixin Canlı Səhifələri" adlı festivalla bağlı söylənilənləri, yazılanları xatırlayaq: tarixi səhnələrin canlandırılması ilə müşayiət olunan genişmiqyaslı tədbirin təşkilatçısı kimi rəsmi sənədlərdə 25 yaşlı Tərxan Əhmədzadə göstərilib. Festivalın keçirilməsi üçün nazirlik həmin şəxsə 400 min manat büdcə ayırıb. Lakin sonradan Tərxan Əhmədzadə nə Qəbələ rayonunda keçirilən festivaldan, nə də bunun üçün ayrılan böyük məbləğdən məlumatı olduğunu deyib: "Mən aldadılmışam. Onlar pula ehtiyacı olan gəncləri tapır, 50-100 manat ödəməklə adlarına firmalar təsis edir, sonra həmin firmalar vasitəsilə öz işlərini görürlər. Mənim adıma hansı şirkətlərin qeydiyyatdan keçdiyini və ümumiyyətlə nə etdiklərini bilmirəm!"

Belə faktların sayını kifayət qədər artırmaq olar. Nəhayət, Hesablama Palatasının bir müddət öncə AGİN-dəki yoxlaması nəticəsində sabiq nazir müavininin yol verdiyi nöqsanların önəmli qismi təsdiqini tapdı. Məlum oldu ki, gənclər siyasətinin həyata keçirilməsi məqsədilə müxtəlif mövzular üzrə layihələrin və tədbirlərin icrası zamanı ilin sonuna istifadə edilməmiş vəsaitin dövlət büdcəsinə geri qaytarılmaması məqsədilə avans məbləği ilə bağlı tələblərə əməl edilməyib, müqavilə şərtlərinin dəyişdirilməsi, son nəticədə, ayrılmış vəsaitin nəticəliliyinin və təyinatının müəyyənləşdirilməsi imkanlarını məhdudlaşdırıb.

Layihələrin və tədbirlərin həyata keçirilməsinə hazırlıq prosesində tələblərin düzgün müəyyənləşdirilməməsi, eləcə də mövcud potensialların dəyərləndirilməməsi səbəbindən daha baha qiymətlərin tətbiq olunması vəsaitlərin artıq istifadəsi ilə nəticələnib, bir neçə halda düzgün iddiaçının seçilməməsi layihələr üzrə öhdəliklərin üçüncü tərəfə ötürülməsinə səbəb olub. Qeyd edilənlər isə bu istiqamətdə təkcə bir il ərzində 310,7 min manat artıq vəsaitin istifadəsinə yol açıb!

Bundan başqa, bir sıra idman federasiyaları, eləcə də idman məktəbi tərəfindən yığma komandanın üzvlərinin beynəlxalq yarışlara və Olimpiya oyunlarına hazırlanması, həmçinin federasiyanın maddi-texniki bazasının yaxşılaşdırılması məqsədilə maliyyə köməkliyinin göstərilməsi ilə bağlı etdiyi müraciətlər asasında təsdiq edilmiş büdcəsində nəzərdə tutulmasa da, nazirlik tərəfindən təyinat dəyişikliyi edilərək 5 federasiya və 1 idman məktəbi üzrə ayrılmış xərclər smetasında nəzərdə tutulmayan ümumilikdə 435,1 min manat vəsaitin ayrılması təmin edilib!

Aydınlaşdı ki, Babayevin kurasiya etdiyi istiqamətlərdə böyük məbləğlərlə müşahidə olunan yeyintilərə yol verilib, araşdırmalar davam edərsə və dərinləşdirilərsə ən müxtəlif adlarla, səbəblərlə başqa mənimsəmə hallarının da müəyyənləşdirilməsi qaçılmazdır.

Təbii ki, bu cür dosyeyə malik bir məmurun nazir müavinliyindən uzaqlaşdırılaraq Nazirlər Kabineti Aparatında hansısa vəzifəyə gətirilməsinə məntiqi izah vermək mümkün deyil. Görünür, sözügedən təyinatın yanlışlığı nəhayət ki, anlaşılıb və Babayev həmin kreslosunu da itirib. Üstəlik, bunun sabiq nazir müavini üçün yeni (və böyük!) təhlükənin müşdəçisi ola biləcəyi də istisna olmamalıdır. Mümkündür ki, onun AGİN-dəki fəaliyyəti yenidən təftiş hədəfinə çevrilsin və yol verdiyi yeyintilərin hüquqi müstəvidə qiymətləndirilməsi reallaşsın. Əks təqdirdə Babayevin cəmi 9 ay öncə təyin edildiyi vəzifəsindən kənarlaşdırılmasının başqa hansı səbəbi ola bilər?!

***Sənan Mirzə***

# Samir Şərifov "portfel naziri"nə çevrilir

## Maliyyə naziri ən mühüm səlahiyyətlərindən birini itirdi

**Maliyyə naziri Samir Şərifov özünün ən mühüm səlahiyyətlərindən birini itirib. Belə ki, ölkə başçısı Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri haqqında" 2009-cu il 9 fevral tarixli 48 nömrəli və "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2019-cu il 16 oktyabr tarixli 842 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə fərman imzalayıb.**



Dəyişikliklə Nazirlik öz vəzifələrini həyata keçirmək üçün büdcə təşkilatları və dövlət büdcəsindən dotasiya, subsidiya, subvensiya və digər maliyyə yardımları alan təşkilatlardan həmin vəsaitlərdən istifadə barədə müəyyən olunmuş qaydada aylıq hesabat almayacaq. Əvvəl isə Nazirlik öz vəzifələrini həyata keçirmək üçün büdcə təşkilatları və dövlət büdcəsindən dotasiya, subsidiya, subvensiya və digər maliyyə yardımları alan təşkilatlardan həmin vəsaitlərdən istifadə barədə müəyyən olunmuş qaydada aylıq, rüblük və ilin əvvəlindən artan yekunla funksional, iqtisadi və inzibati təsnifat üzrə hesabatlar almaq hüququna malik idi.

İndi isə həmin səlahiyyət Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətində olacaq.

Dövlət rəhbəri həmin Xidmətin İdarə Heyətinin sədri təyin edilməsi haqqında da sərəncam imzalayıb. Sərəncama əsasən bu posta Zaur İntiqam oğlu Fəti-zadə təyin olunub.

Qeyd edək ki, son vaxtlar Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidmətinin xətti ilə həyata keçirdiyi yoxlamalarla bağlı tənqidi fikirlər səslənirdi. Bildirilirdi ki, nazirliyin yoxlamaları kifayət qədər effektiv deyil və bir çox hallarda yeyinti hallarının aşkarlanmasına deyil, nələrinsə müqabilində örtbasdır edilməyə yönəlir. Haqlı olaraq belə suallar səslənirdi ki, istər DTX-nin, istər Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin əməliyyatları, istərsə də Hesablama Palatasının auditləri zamanı ayrı-ayrı dövlət qurumlarında kifayət qədər böyük məbləğlərlə müşahidə olunan yeyintilər aşkarlanır, bunun müqabilində Maliyyə Nazirliyinin yoxlamaları isə kifayət qədər cılız təsir bağışlayır.

Məhz bu nüanslardan çıxış etdikdə Maliyyə Nazirliyinin büdcə təşkilatları və dövlət büdcəsindən dotasiya, subsidiya, subvensiya və digər maliyyə yardımları alan təşkilatlardan həmin vəsaitlərdən istifadə barədə müəyyən olunmuş qaydada aylıq hesabat alınması səlahiyyətindən məhrum edilməsi təəccüb doğurmur.

Eyni zamanda o da istisna edilmir ki, gələcəkdə Samir Şərifov digər bir çox mühüm səlahiyyətlərindən də məhrum edilə bilər. Bir sözlə, onun tədricən "portfelsiz nazir"ə çevrilməsi də mümkündür. Təcrübə isə belə tendensiyanın sonda ümumiyyətlə nazir postundan kənarlaşdırılmaqla yekunlaşacağını göstərir. Odur ki, 2006-cı ildən bu yana, düz 16 ildir maliyyə naziri postunu tutan 62 yaşlı Şərifovun da yaxın vaxtlarda öz vəzifəsi ilə vidalaşacağını təxmin etmək mümkündür.

Şərifov "köhnə komanda" üzvlərindəndir və onun ölkədə aparılan genişmiqyaslı islahatlar dalğasından öz nəsibini alaraq vaxtından əvvəl təqaüdə göndərilməsi tamamilə gözlənilir.

O da maraqlıdır ki, son illərdə maliyyə naziri ilə deputatlar arasında mütəmadi polemikalar yaranırdı. Məsələn, deputat Q.Həsənquliyev parlamentin plenar iclaslarından birində demişdi ki, "Youtube"də videoya baxıb və orada ikinci qrup əlilin müavinətinin neçə ildən sonra kəsildiyini görüb. O bildirib ki, həmin şəxs ölkə rəhbərliyinə müraciət edir: "Bu məsələdə qənaət etmək lazım deyil. Qənaəti orda etmək lazımdır ki, qotur danaları dəyərindən xeyli baha qiymətə alıb insanlara satdılar. Öz qardaşının, öz şirkətinin vasitəsilə bunu etdilər. Bu məsələlərə diqqət yetirmək, qənaət etmək lazım idi. Kasıb insanların pulunu kəsiblər. Harın həyat sürən insanların kasıblardan xəbəri ola bilməz. Vəsaiti belə qənaət etmək olmaz. Bu insanları hökumətə qarşı qoymaq olmaz. Bu sahəyə hansı insanların hökumətdən narazı ola biləcəyini dərk edən adam rəhbərlik etməlidir. Büdcədən ayrılan vəsaitlər aidiyyəti üzrə xərclənməlidir". Şərifov isə elə həmin iclasda millət vəkilinin sözlərinə sərt reaksiya vermişdi: "O, ya yaxşı tanış olmayıb bu məsələlərlə, ya da başqa məqsədlər güdür. Tövsiyə edirəm ki, Qüdrət müəllim sui-istifadə sözündən az istifadə etsin və ehtiyatla yanaşsın".

Parlamentin başqa bir iclasında isə maliyyə naziri büdcə kəsrinin azalmasını tənqid edən deputatlara sərt reaksiya vermişdi: "Bunun nəyi pisdir? Burada yeni seçilmiş deputatlar deyir ki, hesabatda izahat yoxdur. Başa düşmürəm, nə izahat?! Kimsə özünü yenidən təsdiq etmək istəyirsə, bunu edə bilər. Mən onları pandemiya dövründə də qəbul etməyə hazıram. Bizə məktub da göndərə bilərlər".

Samir Şərifovun yeni deputatlarla bağlı səsləndirdiyi fikirlərə isə millət vəkili Etibar Əliyev münasibət bildirərkən yeni seçilmiş deputatlardan heç birinin özünü təsdiq etmək üçün çıxış etmədiyini demişdi. Sitat: "Maliyyə Nazirliyinin hesabatına gəldikdə yalnız Erkin Qədirli çıxış etdi. Onun çıxışı da özünü təsdiq etmə məqsədi daşımırdı. Ümumiyyətlə, Samir Şərifov bugünkü iclasda aqressiv təsir bağışladı. Görsənir ki, tənqidə dözümü çox zəifdir".

Ümumiyyətlə isə son zamanlar Şərifovun fəaliyyəti ilə bağlı artan tənqidlər onun nazir postu ilə vidalaşa biləcəyi yönündə ehtimalları bir az da qüvvətləndirir.

***Sənan Mirzə***

# Azərbaycan səfiri Fransadan Ermənistana çağırış etdi



***"BMT Təhlükəsizlik Şurasına üzv dövlətlərin, demək olar ki, bütün bəyanatlarında üçtərəfli bəyanat çərçivəsində öhdəliklərin yerinə yetirilməsinə çağırış olub".***

"Unikal" xəbər verir ki, bunu Azərbaycanın Fransakı səfiri Leyla Abdullayeva tviterdə yazıb. O bildirib ki, İrəvan Azərbaycan, Rusiya və Ermənistan liderləri arasından imzalanan üçtərəfli sənədi kobud şəkildə pozur.

"Ermənistan, nəhayət, BMT Təhlükəsizlik Şurasının üzvlərinin bu cür çağırışlarına əməl etməlidir", - diplomat vurğulayıb.

# "İrəvan sülh təkliflərini Bakıya təhvil verib" - Paşinyan



***İrəvan sülh müqaviləsi ilə bağlı təkliflərini Bakıya təqdim edib.***

"Unikal" "İnterfaks"a istinadən xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan hökumətin iclasında deyib.

"Biz bu məzmunda saziş imzalamağa hazırıq və ümid edirəm ki, Azərbaycanın reaksiyası müsbət olacaq. Ermənistan da bir neçə ay əvvəl Azərbaycana sərhədin delimitasiyası və demarkasiyası üzrə komissiyanın gələcək işi ilə bağlı təkliflərini təqdim edib. Ermənistan regional kommunikasiyaların açılması ilə bağlı təkliflərini verib və dərhal qərar qəbul etməyə hazırdır", - Paşinyan bildirib.

***Gülayə Mecid***

# Avropa Məhkəməsindən Ermənistana rədd cavabı verildi

***Avropa İnsan Haqları Məhkəməsi İrəvanın Laçın yolunun "açılması" üçün Bakıya qarşı sərt tədbirlər tətbiq etmək tələbini rədd edib.***

"Unikal" xəbər verir ki, bu barədə informasiya teleqram kanallarında yer alıb.

Qurumun fikrincə, Azərbaycanın Qarabağ bölgəsində yaşayan ağır xəstələrin və digər ermənilərin təhlükəsiz keçidinə icazə verilməlidir.

İrəvan hesab edir ki, rəsmi Bakı təbii qazın verilməsini bərpa etməyi öhdəsinə götürməlidir.

Yeri gəlmişkən, Laçın yolu rus sülhməramlıları tərəfindən bağlanmışdı. Yol humanitar məqsədlər üçün açıqdır. Ancaq Azərbaycan həmin yoldan separatçılara silahların daşınmasına, faydalı qazıntıların Ermənistana aparılmasına icazə verməyəcək.

Bu, rəsmi Bakının net cavabıdır. Elə bu baxımdan adı çəkilən yolda fəalların aksiyası 11 gündür ki, davam edir.

# Şəhid ailəsinin fərdi yaşayış evi qazlaşdırıldı

***SOCAR "Azəriqaz" İstehsalat Birliyi tərəfindən daha bir şəhid ailəsinin istəyi həyata keçirilib.***

"Unikal" xəbər verir ki, Vətən müharibəsi şəhidi Elməddin Mustafayevin ailəsi fərdi yaşayış evinin qazlaşdırılması üçün Birliyə müraciət ünvanlayıb.

Həssas qrup üzvlərinin qayğılarını daim diqqət mərkəzində saxlayan SOCAR "Azəriqaz" İB tərəfindən qısa zaman ərzində şəhid ailəsinin fərdi yaşayış evinə qaz xətti çəkilərək sayğac quraşdırılıb.

# "Bu aksiya xalqımızın xarici təhlükə qarşısında həmrəyliyini göstərir" - Deputat



***"Xankəndi-Laçın yolundakı dinc etiraz aksiyası xalqımızın xarici təhlükə qarşısında həmrəylik nümayişidir".***

Bunu "Report"a açıqlamasında Milli Məclisin deputatı Elnur Allahverdiyev Xankəndi-Laçın yolunda 11 gündür davam edən etiraz aksiyasını şərh edərkən deyib. Onun sözlərinə görə, ekofəalların Xankəndi-Laçın yolundakı aksiyası Azərbaycan cəmiyyətinin, xalqımızın ümummilli problemlər qarşısında birliyinin bariz göstəricisidir: "Vətəndaş cəmiyyəti ölkədəki ictimai rəyin inikasıdır. Xalqın nə demək istədiyinin carçısıdır. Bu baxımdan, bir tərəfdən hesab etmək olar ki, bu bir ümumxalq aksiyasıdır, digər tərəfdən isə xarici təhlükə qarşısında birlik, həmrəylik nümayişidir".

Deputat xatırladıb ki, Azərbaycan xalqı özünün birliyini 44 günlük Vətən müharibəsi günlərində göstərib: "Ekoloqların hərəkatı ilə başlayan, QHT-lərin dəstəyi ilə davam edən aksiya da bir növ o birliyin davamıdır. On gündən çoxdur insanlarımız soyuqda, şaxtada ayaq üstədir. Bu, bir əzm göstəricisi və nümayişidir. Qoy, bütün dünya görsün ki, biz bir addım torpağımızı güzəştə getmək, təbii sərvətlərimizin düşmən tərəfindən talan edilməsinə göz yummaq niyyətində deyilik. Biz tarix qarşısında, gələcək övladlarımız qarşısında, əcdadlarımızın ruhu önündə borcluyuq. Bax, bu borcu, məsuliyyəti və ümumxalq öhdəliyini xalq adından bu gün vətəndaş cəmiyyəti sektoru nümayiş etdirir".

E.Allahverdiyev bildirib ki, QHT sektoru dövlətdən kənardır və bir çox hallarda vətəndaş cəmiyyəti təmsilçisinin mövqeyi, hər hansı hadisəyə baxışı hökumətlə üst-üstə düşməyə bilər: "Bu, bir reallıqdır. Vətəndaş cəmiyyəti təmsilçiləri həm qeyri-hökumət cinahının təmsilçiləridirlər, həm də istədikləri halda rəsmi siyasətlə razı olmaya bilərlər. Ancaq bu aksiyadakı birlik onu göstərir ki, Qarabağ məsələsi siyasi görüşlərindən, iqtidarı, ya müxalifəti, hökumət və ya qeyri-hökumət sektorunu təmsil etməsindən asılı olmayaraq hər birimizin problemidir. Fikrimcə, bu həmrəylik həm də sözügedən sektordakı islahatların, dövlət - QHT münasibətlərinin savadlı tənzimlənməsinin nəticəsi, bəhrəsidir".

Deputat həmçinin qeyd edib ki, dünya Azərbaycan xalqının bir hissəsi olan vətəndaş cəmiyyətinin keçirdiyi aksiyada nümayiş etdirilən təmkin, mədəniyyət və dözümlülüyə diqqət yetirməlidir: "Bütün dünya bu prosesi izləyir. Reaksiyalardan görürük. Mən xüsusilə hadisə yerindən minlərlə kilometr uzaqda olan, bizim tariximizi bilməyən, ermənipərəstlik edən dövlətlər və dairələrə səslənirəm. Görün bizim etiraz etmə mədəniyyətimizi. Diqqətlə izləyin və anlamağa çalışın: Azərbaycan xalqı sülh istəyir. Bu problemin köklü şəkildə həll edilməsini istəyir. Biz buna hər bir halda nail olacağıq. Silahlar susanda belə mədəniyyət, səbir, dözümlülük göstərməklə nail olacağıq. Bir qarış torpağımızı heç kimə güzəştə getməyəcəyik. Bunu birdəfəlik bilsinlər!".

# Ələkrəm Hümmətov vəfat etdi

***Özünü qondarma Talış-Muğan Respublikasının lideri kimi təqdim edən Ələkrəm Hümmətov dünyasını dəyişib.***

"Unikal" xəbər verir ki, bununla bağlı məlumat sosial şəbəkədə yayılıb.

Bildirilib ki, o, Hollandiyada xəstəlik səbəbindən vəfat edib.

Qeyd edək ki, Ələkrəm Ələkbər oğlu Hümmətov 1948-ci ildə Lerikdə anadan olub. 1992-1993-cü illərdə Azərbaycan müdafiə nazirinin müavini olub. Bu vəzifədə olarkən, 1993-cü ildə qondarma Talış-Muğan Respublikasını elan edib və separatçılıq fəaliyyətinə görə həbs edilib. 2004-cü ildə həbsdən azad edildikdən sonra mühacirətə gedib.

# Bu il 731 nəfər QİÇS-ə yoluxub

***2022-ci ilin 11 ayı üzrə 731 nəfər İnsan immun çatışmazlığı virusuna (İİV) yoluxub.***

"Unikal"ın xəbərinə görə, bu barədə Narkomanlığa və Narkotik vasitələrinin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə Üzrə Dövlət Komissiyasının məlumatında deyilir.

Bildirilib ki, bunların 715-i Azərbaycan vətəndaşıdır. Ümumilikdə 1987-ci ildən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Respublika QİÇS-lə Mübarizə Mərkəzində İİV diaqnozu təsdiq olunmuş 10101 nəfər qeydiyyata götürülüb (9772-si Azərbaycan vətəndaşı, 329-u əcnəbi).

İİV-ə yoluxanların 10101 nəfərin 7195-i kişi, 2906-sı qadındır. Onlardan 3556-sı İİV-ə yoluxma inyeksion narkotik istifadəsi nəticəsində baş vermişdir. Həmin kateqoriyadan olan şəxslərin 2499 nəfəri hazırda dispanser qeydiyyatındadır.

# Ziya Məmmədovun qardaşının adı yeni qalmaqalda

## Sabiq deputat villasının həyətində böyük qaraj tikdirib, ancaq pulunu verməyib?



***Sabiq nəqliyyat naziri Ziya Məmmədovun qardaşı olan eks-deputat Elton Məmmədovun adı növbəti dəfə qalmaqalla gündəmə gəlib. Belə ki, Ucar rayonu Qarabörk kənd sakini Qasımov Elvin Kərim oğlu yerli mətbuata ünvanladığı müraciətdə E.Məmmədovun onu işlətdiyini və pulunu vermədiyini iddia edib.***

Şikayətçi pulunu tələb etdikdə isə keçmiş millət vəkilinin onu həbs etdirməklə hədələdiyini bildirib.

"Mən Ucar rayonunda yaşayıram, tikinti ustasıyam, sənətkaram. Keçmiş deputat Elton Məmmədov sürücüsü Sırac Quliyev vasitəsi ilə mənimlə danışdı ki, ona məxsus olan, Ucarın Qazıqumlaq kəndində yerləşən villasının həyətində böyük bir avtomobil qarajı inşa edim. Layihə-smeta hazırlandı və bu ilin sentyabr ayında tikintiya başlanıldı. Avtomobil qarajı 3 ay müddətində inşa edildi. Tikintidə 10 nəfər usta işlədildi.Bahalı materiallardan incəliklərlə inşa edilən qaraj keçmiş deputat Elton Məmmədovun çox xoşuna gəlsə də pulumu kəsdi və 3700 manatımı vermədi. Mən ona izah etdim ki, 3 ay ərzində hər gün taksi ilə Qazıqumlaq kəndinə gəlib-getməyə təkcə 1000 manat pul xərclənib. Mən tikinti materialları satan mağazalara pul borclu qalmışam, hansı ki, həmin tikinti materiallarını nisyə götürmüşəm.Tikinti işlərində mənə köməklik edən fəhlələrə də pul borclu qalmışam. Mənə olan 3700 manat pul borcunu almaq üçün 3 dəfə Elton Məmmədovun evinə getmişəm. Axırda mənə dedi ki, səni həbs etdirəcəyəm" deyən şikayətçi əlavə edib ki, çıxılmaz vəziyyətdə qalıb, mağazalara və fəhlələrə borcunu qaytara bilmir.

Şikayətçi ölkə rəhbərliyindən kömək istəyib, eyni zamanda bildirib: "Heç olmasa keçmiş nazir Ziya Məmmədov qardaşına desin ki, fəhlənin pulunu kəsmə, halallıq al".

Sabiq deputat isə barəsində ki iddia ilə bağlı hələlik hər hansı açıqlama verməyib.

Bir daha qeyd edək ki, Elton Məmmədov istər deputat olarkən, istərsə də millət vəkili mandatını itirdikdən sonra barəsindəki bir çox qalmaqallı iddialarla, xəbərlərlə gündəmə gəlib. Onunla bağlı ən böyük skandal isə Bakı Beynəlxalq Avtovağzalının inşası ilə bağlı idi. "2009-2013-cü illərdə Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində inşa edilən avtovağzal Elton Məmmədovun nəzarətində olub. Bu "səlahiyyəti" ona həmin vaxt nazir olan qardaşı Ziya Məmmədov vermişdi. Məlumatlara görə, dövlət sifarişi ilə inşa olunan avtovağzalın tikintisi Məmmədovların ailə şirkəti olan "ZQAN Holdinq" (sonradan adı "Qarant" olaraq dəyişdirildi, iddialara görə, buna səbəb də maxinasiyaların gizlədilməsi idi) tərəfindən aparılmışdı.

Tikintinin baş podratçısı isə "Bakı XXI Əsr" MMC adlı şirkət olmuşdu. Həmin şirkətin təsisçisinin Böyük Britaniyanın Vircin adalarındakı "Trans European Leasing Group" LTD-dir. MMC Azərbaycanda 2004-cü ilin martında qeydiyyatdan keçdiyi aydınlaşmış, təsisçilərindən birinin də Elton Məmmədov olduğu ortaya çıxmışdı. Avtovağzal kompleksinin inşasının 100 milyon dollara başa gəldiyi və tikinti zamanı külli miqdarda "yeyinti"nin olduğu haqda da mətbuatda yetərincə məlumatlar yayılmışdı.

Maraqlıdır ki, məhz Bakı Beynəlxalq Avtovağzalının inşasının ardınca Ziya Məmmədovun ovaxtkı deputat qardaşının qısa müddətdə əməlli-başlı oliqarxlaşdığı da ortaya çıxmışdı. Üstəlik, E.Məmmədovun oğlu da bahalı avtomobillər "kolleksioneri" kimi gündəmə gəlmişdi. Məlum olmuşdu ki, eks-deputatın "avtoş"luğa meylli oğlunun "Lamborghini Avendator LP700-4", "BMW", "Mercedes CLS 63", "Grand Cherokee", "Ferrari" və "Maserati" kimi hər biri kifayət qədər yüksək qiymətə malik, ümumi dəyəri isə milyonlarla dollar olan lüks avtomobilləri var.

Bu qədər zəngin sərvətə malik bir şəxsin isə işlətdiyi əməkçilərin bir neçə min manatını çox görməsi, onlara sahib olduğu var-dövlətinin yanında "tumpulu" belə sayılmayacaq borcunu ödəməməsi heç bir məntiqə sığmır. Əlbəttə, əgər hər şey şikayətçinin mediada yer alan iddialarında deyildiyi kimidirsə!

Əks təqdirdə sabiq nazirin eks-deputat qardaşı çıxıb ünvanına səsləndirilən ittihama münasibət bildirməli, həmin iddiaların həqiqətdən uzaq olduğunu inandırıcı şəkildə ortaya qoymalıdır...

***Toğrul Əliyev***

5.3.18. gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Erkən nikahın qarşısının alınması üçün qanunvericilik sərtləşdirilir

## Kəmalə Ağazadə: “Qapısında toy çalınır, amma qızın anası deyir ki, nişandır, valideynin boynuna bunu qoymaq olmur”

***Olkəmizdə Ailə Məcəlləsinə görə nikah yaşı 18 yaş müəyyən edilsə də, erkən nikah hallarına rast gəlinir. Nikah yaşında istisnaların olması bəzən erkən evliliklərə vəsilə olur. Hətta 18 yaşına çatmamış molla kəbininin kəsilməsi din xadimlərinə qadağan edilsə də, bəzən buna əhəmiyyət verilmir.***



Cəmiyyətdə erkən nikaha qarşı aparılan maarifləndirmə işləri sayəsində bu problemin qarşısı qismən alınsa da, hələ də erkən nikah hallarına rast gəlinir. Bu isə dövlət qurumlarını qanunvericiliyi daha da sərtləşdirməyə sövq edir. Azərbaycanda yaxın zamanlarda nikah yaşına dəyişiklik edilməsi gözlənilir. Bunu Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Milli Məclisin son iclasında gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının illik məlumatını təqdim edərkən deyib. B. Muradova bildirib ki, qanunvericilikdə nikah yaşı 18 qəbul edilməlidir: ”Bəzən 17 yaşında olanlara ailə qurmağa icazə verilir, amma biz 18 yaşdan aşağı olanların ümumilikdə nikaha girməsinin qadağan edilməsinin tərəfdarıyıq”.

Komitə sədri bildirib ki, qanunvericilikdə nikah yaşı birmənalı 18 qəbul edilməli, heç bir istisna olmamalıdır: ”Mən sizdən istisna halların aradan qaldırılması ilə bağlı dəstək istəyirəm. Bizdə erkən nikah ifadəsi var. Biz 17 yaşa tətbiq edilən istisna hallarını aradan qaldırsaq, erkən nikah ifadəsi dilimizdən çıxarılacaq”.

Azərbaycan Uşaqlar Birliyinin sədri Kəmalə Ağazadə “Unikal”a bildirib ki, nikah yaşının 18 yaş qəbul edilməsi qanunvericilikdə edilmiş mühüm addımdır. Onun sözlərinə görə, qanunvericilikdə nikah yaşında istisnanın qeyd olunması erkən evliliklərə yol açır. Bununla belə K. Ağazadə nişanlanmaq üçün də yaş məhdudiyyətinin qoyulmasını təklif edir. Bildirir ki, valideynlər adətən nişan adı altında övladlarına toy edirlər: ” Qapısında toy çalınır, amma qızın anası deyir ki, nişandır. Ona görə də məktəb yaşlı qızların nişanlanmasının qarşısı alınmalıdır”.

K. Ağazadə bildirdi ki, əksər valideynlər nikah yaşında istisnalardan sui-istifadə edirlər: ”İndi nikah yaşı 18 olsa da 17 yaşda nikaha icazə verilir. Valideynlər isə uşağın anasının, atasının xəstə olduğunu bəhanə edib qanundakı istisnadan sui-istifadə edirlər. 18 yaşdan aşağı nikaha icazə vermək olmaz. Ağır xəstə olanda uşağın gələcəyini məhv etmək olar? Valideyn dünyasını dəyişdikdən sonra övladı daha ağır vəziyyətə düçar olacaqsa o dünyada rahatlıq tapmayacaq. Bunu valideynlər arasında təbliğ etmək lazımdır”.

Birlik sədri deyir ki, valideyn məsuliyyəti də qanun çərçivəsində müəyyən edilməlidir. K. Ağazadə övladını erkən yaşda nişanlayan, evləndirən valideynlərə qarşı daha sərt tədbirlərin görülməli olduğunu söyləyir. Həmsöhbətimiz deyir ki, nikahdan kənar uşaqların doğulması, boşanmalar əksər hallarda erkən nikahlarda qeydə alınır.

Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi, Monitorinq və təhlil şöbəsinin həkim-metodisti Afət Məmmədova isə erkən yaşda ərə gedən qızlarda bir sıra doğuş patologiyalarının yarandığını bildirib. Onun sözlərinə görə, anemiya uşağın inkişafına yaxşı təsir göstərmir. Erkən yaşda ailə həyatı quran qızlarda hansısa səbəbdən qan təzyiqi qalxır: ”Normal doğuş 14 saat çəkir. Ləng doğuş isə daha uzun çəkir. Bu zaman qadının uşaqlıq əzələləri yığılır və uşaq doğulandan sonraq qadında çox təhlükəli qanaxma baş verə bilər”.

O, bildirib ki, hazırda rayonlarda erkən nikahlarla bağlı vəziyyət qənaətbəxşdir: ”Erkən yaşda nikahlara daha çox Mərkəzi Aran, Dağlıq Şirvan zonasında, hətta Bakı və Abşeronun kəndlərində və cənub zonasında rast gəlinir”.

A. Məmmədova qeyd edib ki, beynəlxalq təhlillər göstərir ki, 15-19 yaşlı qızlar arasında əsas ölüm səbəbi hamiləlikdir: ”Araşdırmalara görə, 18 yaşına qədər qızlarda ölümü hallarına əsasən erkən doğuş səbəb olur. 15 yaşından kiçik yaşda hamilə olan qızlarda bir sıra fəsadlar özünü göstərə, vaxtından əvvəl doğuşlar meydana gələ bilər. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, qadın üçün dünyaya uşaq gətirmək yaşı 18-35 yaş arasındadır”.

Xatırladaq ki, Ailə Məcəlləsində 10-cu maddə ”Nikahın yaşı” adlanır. Həmin maddəyə əsasən, Azərbaycan Respublikasında nikah yaşı 18 yaş müəyyən olunur. Üzrlü səbəblər olduqda, nikaha daxil olmaq istəyən və nikah yaşına çatmamış şəxslərin yaşadıqları ərazinin müvafiq icra hakimiyyəti orqanı onların xahişi ilə nikah yaşının 1 ildən çox olmayaraq azaldılmasına icazə verə bilər. Onu da bildirək ki, Milli Məclisin iclasında ”Gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanının illik məlumatı” müzakirə edilib. Sənəd barədə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova məlumat verib. Sənəd müzakirələrdən sonra səsverməyə çıxarılaraq qəbul edilib.

*Gülayə Mecid*

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.

# Energetika Nazirliyi EBRD ilə memorandum imzalayıb



***Energetika Nazirliyi ilə Avropa Yenidənqurma və inkişaf Bankı (EBRD) arasında elektroenergetika sektorunun inkişafı ilə bağlı texniki dəstəyə dair Memorandum imzalanıb.***

”Unikal” xəbər veirr ki, bunu nazir Pərviz Şahbazov ”Tvitter”də bildirib.

”Aşağı karbonlu və dayanıqlı inkişaf məqsədli bu əməkdaşlıq yaşıl enerjinin inkişafına, elektrik stansiyalarında səmərəliliyin artırılmasına və CO2-nin azaldılmasına töhfə verəcək”, - deyə o qeyd edib.

# Şuşa şəhər Dövlət Qoruğu İdarəsinin Strateji İnkişaf planı qəbul olunub

***Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonu üzrə xüsusi nümayəndəsi, Şuşa şəhəri Dövlət Qoruğu İdarəsinin Müşahidə Şurasının sədri Aydın Kərimovun rəhbərliyi ilə Müşahidə Şurasının növbəti, ikinci iclası keçirilib.***

Şuşa şəhəri Dövlət Qoruğu İdarəsinin İctimaiyyətlə əlaqələr və İnformasiya təminatı şöbəsindən verilən xəbərə görə, iclasda Qoruğ İdarəsinin İcraçı direktorunun müavini, icraçı direktor vəzifələrini müvəqqəti icra edən Tural Novruzov tərəfindən əsas hədəfləri özündə əks edən və icrası 2026-cı ilə qədər nəzərdə tutulan Şuşa şəhər Dövlət Qoruğu İdarəsinin Strateji İnkişaf planı Müşahidə Şurası üzvlərinə təqdim edilib və ümumi rəy nəticəsində qəbul olunub.

Eyni zamanda, Müşahidə Şurasının iclasında bir sıra təşkilati məsələlər də müzakirə olunub və Şuşa Dövlət Qoruğu İdarəsinə yeni daxili auditor təyin edilib.

# Bakıda müəllimlərin orta aylıq əməkhaqqı açıqlandı

***Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil müəssisələrində çalışan müəllimlərin orta aylıq əmək haqqı açıqlanıb.***

Bu barədə ”Unikal”a BŞTİ-dən xəbər verilib.

Bildirilib ki, 2022-ci təqvim ilində müəllimlərin orta aylıq əmək haqqı 867 manat təşkil edib.

# Metronun daha bir stansiyası açılır

***Bakı metropoliteninin ”Xocəsən” elektrik deposu və eyniadlı yerüstü stansiyasında tikinti və quraşdırma işləri tam başa çatıb.***

Bunu qurumun mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov deyib. O bildirib ki, hazırda stansiya və depo ərazisində tənzimləmə və sınaq işləri görülür: ”Hazırda stansiya və depoda inşaat işləri tam yekunlaşıb. Quraşşdırma, sazlama, tənzimləmə və infrastruktutrla bağlı məsələlərinin tam əksəriyyəti həllini tapıb. Hazırda sınaq və tənzimləmə işləri aparılır. Zəruri yerlərdə texnoloji proseslərə uyğun olaraq sazlanma işləri davam etdirilir”.

Xatırladaq ki, ”Xocəsən” elektrik deposu və ”Xosəsən” yerüstü metro stansiyasının ilin sonuna qədər istifadəyə verilməsi planlaşdırılır.

# Gömrük Akademiyasında Mediasiya Şurası ilə görüş keçirildi



***Dövlət Gömrük Komitəsinin Akademiyasında Mediasiya Şurası ilə görüş keçirilib.***

"Unikal" xəbər verir ki, görüşdə Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi, gömrük xidməti general-mayoru Qulu Novruzov, Akademiyanın əməkdaşları, Ədliyyə Nazirliyinin İnsan hüquqları və kommunikasiya idarəsinin rəisi Aynur Sabitova, Mediasiya Şurası İdarə Heyətinin sədri Nadir Adilov və Bakı 2 saylı mediasiya təşkilatının sədri, Mediasiya Şurası Etika Komitəsinin sədri İlhamə Həsənova iştirak ediblər.

Akademiyanın rəisi Qulu Novruzov qonaqları salamlayaraq onları rəhbərlik etdiyi təhsil müəssisəsində görməkdən məmnun olduğunu bildirib. Q.Novruzov digər ixtisaslarla yanaşı hüquqşünaslıq ixtisası üzrə kadr hazırlayan və tələbələrin nəzəri biliklərlə yanaşı praktik bacarıqlarının inkişaf etdirilməsinə xüsusi önəm verən Gömrük Akademiyası ilə Mediasiya Şurası arasında əməkdaşlığın gələcək perspektivlərindən bəhs edib.

Daha sonra tədbirdə Akademiyanın fəaliyyəti, beynəlxalq əməkdaşlıq sahəsində nailiyyət və prioritetləri, xarici ali təhsil müəssisələri və gömrük təlimi strukturları, digər beynəlxalq qurumlarla əlaqələr və layihələr haqqında təqdimat nümayiş olunub.

Akademiyanın fəaliyyətini yüksək qiymətləndirən Ədliyyə Nazirliyinin idarə rəisi Aynur Sabitova yeni fəaliyyətə başlamış Mediasiya Şurası ilə həyata keçirilən qarşılıqlı fəaliyyətdən söz açaraq, Akademiya ilə birgə əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsindən bəhs edib.

Görüşdə çıxış edən Şuranın İdarə Heyətinin sədri Nadir Adilov görüşün əhəmiyyətindən danışaraq qurumun yaranma tarixi, əsas funksiyaları haqqında məlumat verib.

Daha sonra görüş çərçivəsində Mediasiya Şurası tərəfindən Akademiyanın hüquqşünaslıq ixtisasının tələbələri üçün "Azərbaycanda mediasiya islahatları" mövzusunda maarifləndirici seminar keçirilib.

Seminarda tələbələrə mediasiya anlayışı, mediatorların fəaliyyəti, ölkəmizdə mediyasiyanın inkişaf tarixi barəsində məlumat verilib.

Təlimdə həmçinin Mediasiya Şurası Etika Komitəsinin sədri İlhamə Həsənova mediasiyanın məqsəd və prinsipləri, qanunvericiliyi, mediasiyanın mərhələləri barəsində geniş bəhs edərək mövzu üzrə tələbələri maraqlandıran sualları ətraflı cavablandırıb.

Sonda Akademiya rəisi tələbələrin maarifləndirilməsi istiqamətində təşkil edilən seminarın əhəmiyyətini vurğulayaraq qonaqlara geniş və maraqlı çıxışları üçün öz təşəkkürünü bildirib və yeni formalaşan Mediasiya Şurasının fəaliyyətinə uğurlar arzulayıb.

# Zaur Mirzəyev 10 min rüşvət almaqda da ittiham olunurmuş



***Fövqəladə Hallar Nazirliyindəki (FHN) xidməti otağında intim videolar çəkən polkovnik Zaur Mirzəyevin daha bir cinayət əməli üzə çıxıb.***

"Qafqazinfo"nun məlumatına görə, o, Xidmət rəisi Füzuli Əsədovla qohumluq münasibətlərindən istifadə edərək Biləsuvar sakini Murad Qəfərzadəyə Dövlət Yanğından Mühafizə Xidmətinin Biləsuvar rayon şöbəsində işə qəbul etdirəcəyinə dair vəd verib. İş yoldaşı A.Nəsirova vasitəsilə 2019-cu ilin ortalarında Muradın atası Şaheddin Qəfərovdan 10 min manat pul alıb. O, Xidmət rəisinin qərarına təsir etmək imkanlarından istifadə etməklə Murad Qəfərzadəni bu vəzifəyə təyin etdirə biləcəyini deyib. Pulu aldıqdan sonra işə qəbulla bağlı sənədləri Dövlət Yanğından Mühafizə Xidmətinin rəisinə təqdim edib. Daha sonra M.Qəfərzadə həqiqətən də yanğınsöndürən kimi işə qəbul olunub.

Murad Qəfərzadənin atası Şaheddin Qəfərov dindirilmə zamanı Zaur Mirzəyevə çatdırılması üçün pulu onun dediyi şəxsə verdiyini etiraf edib. Z.Mirzəyev isə sözügedən ittihamları qəbul etmir.

Bu əmələ görə, FHN polkovnikinin ittiham olunduğu maddələr arasına Cinayət Məcəlləsinin 312-1.1-ci (Vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə-nüfuz alveri) maddəsi də əlavə olunub. Onun işinə Bakı Ağır Cinayətlər Məhkəməsində baxılır.

Qeyd edək ki, Zaur Mirzəyev FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin rəisi Füzuli Əsədovun əmisi qızı ilə evlidir. F.Əsədov isə keçmiş kənd təsərrüfatı naziri Heydər Əsədovun qardaşıdır.

# Bu satış müəssisələrində nöqsanlar aşkarlandı -Siyahı

***Qida Təhlükəsizliyi Agentliyinin(AQTA) əməkdaşları tərəfindən respublika ərazisində qida sahəsində fəaliyyət göstərən 38 ticarət müəssisəsi və 12 ictimai iaşə müəssisəsində həyata keçirilən monitorinqlər zamanı ümumilikdə 31 müəssisədə nöqsanlar müəyyən olunub.***



Bu barədə "Unikal"a AQTA-dan məlumat verilib. Bu müəssisələrdə obliqat qrupuna daxil olan işçilərin ilkin və dövri tibbi müayinədən keçirilməməsi ilə bağlı 23, baytarlıq şəhadətnaməsi və ya arayışı olmayan heyvan mənşəli məhsulların qəbulu ilə bağlı 5, Azərbaycan dilində markalanması olmayan məhsulların satışı ilə bağlı 4, qida təhlükəsizliyi qeydiyyatına dair çıxarışın olmaması ilə bağlı 18, ev şəraitində hazırlanan məhsulların satışı ilə bağlı 1 nöqsan aşkar olunub. Aşkar edilmiş nöqsanlarla bağlı qanunvericiliyin tələblərinə uyğun müvafiq tədbirlər görülüb.

Yoxlama nəticəsində obliqat qrupuna daxil olan işçilərin ilkin və dövri tibbi müayinədən keçirilməməsi, baytarlıq şəhadətnaməsi və ya arayışı olmayan heyvan mənşəli məhsulların qəbulu, Azərbaycan dilində markalanması olmayan məhsulların satışı, qida təhlükəsizliyi qeydiyyatına dair çıxarışın olmaması, ev şəraitində hazırlanan məhsulların satışı ilə bağlı nöqsanlar aşkar edilib.

# Payız-qış mövsümündə əkilən ağacların bitiş faizi daha yüksək olur

***Meşə əkinləri və səpin işləri qış aylarında da davam etdirilə bilər. Payızın sonu və qış mövsümü iqlim şəraitinə uyğun olaraq əkin üçün optimal vaxt hesab edilir. Bu mövsümlərdə havaların yağıntılı keçməsi nəticəsində torpaqda yaranmış nəmlik hesabına tingin kökü inkişafdan dayanmır. Baharın gəlişi və havaların istiləşməsinə qədər formalaşmış kök sistemi hesabına tinglər normal böyüyüb inkişaf edir.***

"Unikal"ın məlumatına görə, ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov bildirib ki, bu dövrdə alaq otlarının da olmaması kök sisteminin daha yaxşı inkişafına səbəb olur, lakin əkin işlərinin şaxtasız günlərdə, torpaq səthi donmadığı vaxtlarda aparılması daha məqsədəuyğundur.

"Subtropik regionlarda bu işləri il boyu yerinə yetirmək mümkündür. Aparılan əkin işlərində yerli şəraitə uyğunlaşmış növlərə, xüsusən də qışda yarpağı tökülən ağac cinslərindən palıd və ağcaqayına daha çox üstünlük verilməsi lazımdır".

V.Kərimovun sözlərinə görə, hazırki mövsümdə meşə əkini zamanı toxumların səpilməsi işləri də aparılır.

"Belə ki, qış aylarında səpilən bəzi toxumlar yaz mövsümündə hava və torpaqda temperatur artmağa başladıqda daha tez cücərirlər. Nəticə etibarı ilə səpilmiş toxumlar isti yay günlərinədək normal toxmacar kimi formalaşırlar".



Nazir müavini onu da qeyd edib ki, payız-qış mövsümündə meşə sahələrində ağac əkinlərinin, toxum səpini işlərinin aparılması, yaz əkinləri ilə müqayisədə həm bitiş faizinin yüksək olması, həm də dayanıqlılıq baxımından daha uyğundur.

# "8-ci kilometr" bazarında yenidən pozuntular aşkarlandı

***Bu ilin aprel ayında Dövlət Yanğın Nəzarəti Xidməti tərəfindən Bakı şəhərinin Nizami rayonu, C.Naxçıvanski küçəsi, 38K ünvanında yerləşən "8-ci kilometr Ticarət Mərkəzi"nin ərazisində plan üzrə yoxlama keçirilərək aşkar edilən pozuntularla bağlı İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə inzibati cərimə tətbiq edilib.***




Bununla belə, oktyabr ayında aparılan təkrar yoxlama zamanı bir sıra pozuntuların aradan qaldırılmadığı məlum olub. Bu səbəbdən, yenidən İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə nəzərdə tutulmuş inzibati cəza tətbiq edilib və inzibati xətanın törədilməsinə kömək edən səbəbləri və şəraiti aradan qaldırmaq haqqında ticarət mərkəzinin rəhbərliyinə təqdimat verilib.

Bu barədə "Unikal"a FHN-in mətbuat xidmətindən məlumat verilib.

Yoxlamalar zamanı aşkar edilmiş ciddi pozuntulardan biri də yanğına qarşı su hovuzunun üzərində piştaxtaların quraşdırılması olub. Sahibkarlar onlara verilmiş müddət ərzində qanuni tələblərin icrasına səhlənkar yanaşaraq, pozuntuları aradan qaldırmadıqlarına görə Dövlət Yanğın Nəzarəti Xidməti tərəfindən sahibkarlara son xəbərdarlıq edilərək inzibati xətanın törədilməsinə kömək edən səbəblərin və şəraitin aradan qaldırılması üçün 20 gün əlavə vaxt verilib. Həmçinin, sahibkarlarla maarifləndirici söhbət aparılaraq, onlara yanğınsöndürmə texnikasının yanğın su hovuzundan su götürmək imkanının məhdudlaşdırılmasının faciəvi nəticələr doğura biləcəyi diqqətə çatdırılıb, sözügedən yerdə quraşdırılmış piştaxtaların ləğv edilməsi tələb kimi qoyulub.

Artıq Dövlət Yanğın Nəzarəti Xidməti tərəfindən Nizami Rayon İcra Hakimiyyətinin nümayəndələrinin iştirakı ilə qanunsuz zəbt edilmiş ərazidə yanğın su hovuzunun üzərində piştaxtaların söküntüsü işlərinə başlanılması və yanğınsöndürmə texnikalarının hovuzdan su götürməsi imkanı təmin edilib.

# DYP bayram günləri ilə bağlı sürücülərə müraciət etdi

***Baş Dövlət Yol Polisi İdarəsi (BDYPİ) bayram ərəfəsində yol hərəkəti iştirakçılarına müraciət edib.***

İdarədən "Unikal"a bildirilib ki, qarşıdan gələn bayram günləri ilə əlaqədar artıq yerli və respublika əhəmiyyətli avtomobil yollarında yük və sərnişin daşıma fəaliyyətindəki artımla bağlı nəzərəçarpacaq intensivlik müşahidə olunmaqdadır.

Qeyd edilib ki, bu hal təbii olsa da, təəssüf ki dəfələrlə edilən çağırışlara baxmayaraq, hələ də sürücülər arasında yorğun, yuxusuz, hətta səhhətində ciddi problemlər olduğunu bildiyi halda sükan arxasına əyləşən sürücülərə rast gəlinir:

"Əsasən, yük və sərnişin daşıma fəaliyyəti ilə məşğul olan bəzi sürücülərin daha çox qazanc əldə etmək məqsədilə uzaq məsafəli yolu



gün ərzində istirahət etmədən, yorğun, yuxusuz halda bir neçə dəfə qət etməsi isə son nəticədə ağır yol qəzalarının baş verməsinə real zəmin yaradır. Bununla yanaşı, istehsal ili köhnə olan nəqliyyat vasitələrinin yük və sənişin daşımalarında istifadə olunması, habelə daşımalar zamanı normativ tələblərin kobud şəkildə pozulması qəza ehtimalını dəfələrlə artırmaqla yanaşı, həm də belə nəqliyyat vasitələrinin iştirakı ilə baş verən yol-nəqliyyat hadisələrinin ağırlıq dərəcəsinə də birbaşa təsir göstərir".

BDYPİ bir daha sürücülərə, xüsusilə yük və sənişin daşıma fəaliyyəti ilə məşğul olan şəxslərə müraciət edərək onlara səfərə çıxmazdan əvvəl nəqliyyat vasitələrinin texniki sazlığına xüsusi diqqət yetirməyi, hərəkət zamanı özü ilə yanaşı sərnişinlərinin də təhlükəsizlik kəmərini bağlamasını təmin etməyi, sürət rejimini yol və hava şəraitinə uyğun seçməyi, yorğun, yuxusuz halda avtomobil idarə etməkdən çəkinməyi xahiş edib.

# TƏBİB-dən alınan xəstəxanalarda icbari tibbi sığorta dayandırılacaq? - Rəsmi cavab

***"Yanvarın 1-dən Səhiyyə Nazirliyinin tabeliyinə veriləcək tibb müəssisələri yenə də icbari tibbi sığorta çərçivəsində fəaliyyət göstərəcək".***

Bunu Modern.az-ın sorğusuna cavab olaraq İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin (İTSDA) Marketinq və ictimaiyyətlə əlaqələr departamentinin rəhbəri Aynurə Əhmədova bildirib.

İTSDA rəsmisinin sözlərinə görə, tibb müəssisələrinin fəaliyyət istiqamətləri, qaydalar və meyarlar isə yaxın zamanda açıqlanacaq.

2023-cü il yanvar ayının 1-dən etibarən bir sıra tibb müəssisələr TƏBİB-nin tabeliyindən çıxarılacaq.

Bunlar:

- Milli Hematologiya və Transfuziologiya Mərkəzi və bölmələri;
- K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutu;
- Akademik C.M.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutu;
- V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu;
- Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu;
- Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu;
- Azərbaycan Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutu;
- Azərbaycan Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutu, Akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzidir.



Xatırladaq ki, sözügedən tibb müəssisələri 2020-ci il 1 yanvarda Səhiyyə Nazirliyindən alınaraq TƏBİB-in tabeliyinə verilmişdi.

# Göyçayda suvarma mövsümünə hazırlıq görülür

***Göyçayda növbəti suvarma mövsümünə hazırlıq görülür. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, Göyçay Suvarma Sistemləri İdarəsi Göyçay rayonu üzrə 26500 hektara yaxın suvarılan ərazinin su təminatı ilə məşğul olur.***

Suvarılan əkin sahəsinin 7069 hektarı Göyçay çayından, 17772 ha Yuxarı Şirvan kanalından, 1607 ha Yekəxana su anbarından su götürülməklə həyata keçirilir. Ayrı - ayrı mənbələrdən suvarma suyunu götürərək su istifadəçilərinə çatdırılması məqsədi ilə Göyçay Suvarma Sistemləri idarəsinin balansında olan 206 km-ə yaxın təsərrüfatarası kanal və 1517 km-ə yaxın təsərüfatdaxili kanallardan istifadə olunur. Təsərrüfatlararası



kanallar üzərində 613 ədəd, təsərrüfatdaxili kanallar üzərində isə 1273 ədəd hidrotexniki qurğu vardır. Bundan başqa idarənin balansında olan baş su götürücü qurğu üzərində yeni, müasir su ölçən cihaz quraşdırılıb.

2022-ci il ərzində Göyçay Suvarma Sistemləri İdarəsi tərəfindən Qarabaqqal , Ərəb, Şəhadət, Mirzəhüseynli, Bığır, Qaraxıdır, Çərəcə, Potu, Müskürlü, Alpoud, Qızılağac, Çaxırl, İnçə, Ləkçıplaq suvarma arxlarında, Qarayazı beton kanalında və digər arxlarda lildən təmizləmə işləri aparılıb. O cümlədən şəhər daxilindən keçən Mallı-Şıxlı, Potu, Çərəkə, Qarabörk və Qəzyan suvarma arxlarında lil və digər çöküntülərin avtomaşınlarla daşınması təmin edilib. Bundan başqa məcra təmizləmə işləri çərçivəsində Göyçay çayında məcra təmizləmə işləri həyata keçirilib.

Qeyd edək ki, Göyçay rayonunda əraziləri suvarma suyu ilə təmin etmək üçün Göyçay Suvarma Sistemləri İdarəsi 3 mənbədən suvarma suyu götürür. Bunlar Göyçay çayı, Yuxarı Şirvan kanalı və Yekəxana su anbarıdır.

***Hüseyn***

# Vətənini canından çox sevən şəhid Ramiq...



***Ramiq Təhsin oğlu Ağayev üçün Vətən hər şeydən üstün və əziz idi. Onun bir qarışını belə yada yurd olmağına qıymırdı. Odur ki, İkinci Qarabağ müharibəsi başlanan gündən Vətənin harayına səs verən qeyrətli oğulların sırasında birinci olur. Və müqəddəsliyinə tapındığı Vətəninə olan ilahi sevgisini müharibə meydanında canından keçməklə bildirir. Son nəfəsdə " Təki Vətən yaşasın" deyən Ramiq xalqının, millətinin gözündə Vətən səmasının əbədi, parlaq günəşinə dönür. Dövlət tərəfindən ölümündən sonra verilən "Vətən uğrunda", Füzulinin, Cəbrayılın azadlığına görə medalları ondan əzizlərinə yadigar qalır.***

1992-cidə Astara rayonunu Səncərədi kəndində dünyaya göz açan Ramiq Ağayev hələ kənd orta məktəbində oxuduğu zaman öz ağıllı hərəkətlərinə , nəcib, humanist təbiətinə görə seçilirdi. Yaxşı oxumaqla idmana da həvəs göstərir. Rayonda məktəblilər arasında keçirilən idman yarışlarında, "Cəsurlar", " Şahinlər" hərbi oyunlarında həmişə məktəbinə uğur qazandırıb. Vətəninə, xalqına fayda vermək onun həyat amalı olub. Düşmənə əsir düşən torpaqlarının azadlığını düşünən Ramiq tankçı olmaq istəyi ilə orta məktəbi başa vurur.

2010-cu ildə ordu sıralarına çağırılan Vətən sevdalısı Ramiq Ağayevin əsgərlik həyatı cəbhə bölgəsində keçir. Xidmət etdiyi müddət ərzində doğma Azərbaycana əsl oğul olduğunu sübut edə bilir. Əsgər yoldaşları həm də Vətəni necə sevməyi, doğma torpağı necə qorumağı ondan öyrənirlər. Azğınlaşan dığaların ilan başını əzmək üçün hərbidə qalır. Arzuladığı günü gözləməklə sürücü mexanik kimi Azərbaycan Silahlı Qüvvələrinin tərkibində hərbiçi ömrünü yaşayır. Aprel döyüşlərində idarə etdiyi tankla xüsusi igidlik göstərir. Onun kimi qəhrəmanların hünəri hesabına Lələ-təpədə qələbə bayrağımız dalğalanır. O vaxtdan tezliklə düşməndən qisas almaq, Vətən torpaqları nəyin bahasına olursa-olsun azad etmək fikri bir an belə onu rahat buraxmır.

İkinci Qarabağ müharibəsi başlanan kimi Ramiq öz tankı ilə ölüm-dirim savaşına qatılır. Düşmən istehkamlarını dağıdıb qələbəyə yol açır. Hansı kənd uğrunda döyüşə gedirsə, yalnız qalib olur. Həmişə də müharibənin ən qaynar nöqtələrinə can atır. Cəbrayılın işğaldan azad olmasında sona qədər vuruşur. Düşmən imkan tapıb paketlə onun tankını vura bilir.

Döyüş yoldaşları yanan tankdan Astara elinin qəhrəman oğlunu çətinliklə çıxarırlar. Vəziyyəti ağır olduğuna görə Bakıya göndərilir. Həkimlər onu 13 gün həyata qaytarmağa çalışsalar da, mümkün olmur. Ramiq Ağayevin Vətən eşqli ürəyi əbədi olaraq dayanır.

***Zəfər Orucoğlu, AJB üzvü***

# Ötən illə müqayisədə çaylarda sululuq artıb

***Ötən ilin hazırki dövrü ilə müqayisədə bu il ölkə ərazisindəki çaylarda sululuğun bir qədər yüksək olduğu müşahidə edilir.***

Milli Hidrometeorologiya Xidmətinin rəis müavini Rafiq Verdiyev "Unikal"a bildirib ki, hazırda Kür çayının Gürcüstanla sərhəd hissəsində, Qıraqkəsəmən məntəqəsində su nəqli saniyədə 156 kub metrə bərabərdir və bu, ongünlük normaya yaxındır. Bu il məntəqədə sululuq ötən illə müqayisədə 30 faiz çoxdur.

Xidmət rəsmisinin sözlərinə görə, yağıntıların miqdarının nisbətən artıq olması çaylarda sululuğun artmasına şərait yaradıb, bu da son illər sululuğu azalan Kür çayında yaranan bəzi problemlərin həllinə müsbət təsir göstərib.

"Kür çayı üzərindəki anbarlarda ötən illərlə müqayisədə su ehtiyatları artıb, bu da nəticə etibarı ilə Kürdə suyun səviyyəsinin daha yaxşı idarə olunmasına və Neftçala rayonunda, çayın Xəzərə tökülən hissəsində suyun tərkibinin duzluluq səviyyəsinin normallaşmasına səbəb olub."

# Putin Netanyahu ilə telefonla danışdı



***Rusiya Prezidenti Vladimir Putin İsrailin eks-baş naziri Benyamin Netanyahu ilə telefonla danışıb.***

"Unikal" TASS-a istinadən xəbər verir ki, Putin Netanyahunu və bütün israillilələri Hanukka bayramı münasibətilə təbrik edib.

Tərəflər,həmçinin Rusiya Federasiyası ilə İsrail arasında münasibətlərin inkişaf edəcəyinə, müxtəlif səviyyələrdə təmasların davam edəcəyinə əminliklərini ifadə ediblər.

***Seymur Əli***

# Levon Ter-Petrosyanın ürəyinə stent qoyuldu

***Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyanın ürəyinə 4 stent qoyulub.***

"Unikal" xəbər verir ki, bu barədə "Hraparak" nəşri məlumat yayıb.

Bildirilir ki, ölkənin səhiyyə naziri Anahit Avanesyan bu gün sabiq prezidentə baş çəkib. Bildirilir ki, Levon Ter-Petrosyan sabah saat 11:00-da xəstəxanadan buraxılacaq.

# "Rusiya və İran şərikdirlər" - Zelenski

***Xəbər verdiyimiz kimi, Ukrayna prezidenti Volodimir Zelenski ABŞ Konqresində çıxış edib.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, o, amerikalılara Rusiya hücumunun dəf edilməsində ölkələrinə göstərdikləri böyük köməyə görə təşəkkür edib.

"Bütün çətinliklərə və tutqun ssenarilərə baxmayaraq, Ukrayna yıxılmayıb, Ukrayna diri və zərərsizdir", - o, ifadə edib. Zelenski, ABŞ-ı dəstəyi dayandırmamağa çağıraraq, Ukraynanın silah və sursat tədarükünə ehtiyac olduğunu qeyd edib.

"Rusiya soyqırım siyasətində özünə şərik tapıb. O, İrandır. Rusiyanın yüzlərlə aldığı İran dronları kritik infrastrukturumuz üçün təhlükəyə çevrilib. Beləliklə, terrorçulardan biri azad dünyaya qarşı mübarizə aparmaq üçün digərini tapıb", - deyə Zelenski bildirib.

Çıxışın sonunda Ukrayna Prezidenti Baxmutun müdafiəsinin ön xəttində döyüşən Ukrayna əsgərlərinin imzası olan Ukrayna bayrağını Nümayəndələr Palatasının sədri Nensi Pelosiyə təqdim edib.

***Gülayə Mecid***

# İranda 3 nəfər edam olundu

***İranın Şiraz şəhərində qadınlara qarşı silahlı soyğunçuluq və zorlamalar törətdikləri üçün 3 nəfər edam olunub.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, ötən ilin oktyabrında Şiraz şəhərinin Drak Parkı, Sədra Yolu və Əkbərabad bölgələrində qadınlara hücum və təcavüz edən 3 nəfər bu gün səhər Şirazın Adilabad həbsxanasında edam edilib.

# Müharibədə ölən uşaqların sayı açıqlandı

***Rus qoşunları Ukraynada 450 uşağı öldürüb, 864 uşağı yaralayıb.***

"Unikal" xəbər verir ki, bu barədə Ukrayna Baş Prokurorluğu "Telegram"da məlumat yayıb.

"Rusiya Federasiyasının genişmiqyaslı hücumu təcavüzü nəticəsində Ukraynada 1314-dən çox uşaq xəsarət alıb. 450 azyaşlı qətlə yetirilib,864 nəfəri isə xəsarət alıb", - məlumatda deyilir.


## ELAN

**I Qarabağ Müharibəsində - 1992-ci ildə N saylı hərbi hissə tərkibində komandir müavini olmuş ehtiyatda olan zabit, 1954-cü il təvəllüdlü Ağayev Şakir Pünhan oğlunun (laçın) adına 2000-ci ildə Xətai rayon Hərbi Komisarlığı tərəfindən verilmiş "Müharibə veteranı" vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**


# Rusiya XİN-dən Paşinyana reaksiya

***"Rusiya sülhməramlıları öz missiyasını icra edir".***

"Unikal" xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova keçirdiyi brifinqdə Ermənistan Baş naziri Nikol Paşinyanın Rusiyanı Laçın dəhlizində üzərinə düşən öhdəliyi yerinə yetirməməklə bağlı ittihamını şərh edərkən deyib.



"Mən bunun əksini deyə bilərəm. Rusiya sülhməramlıları öz missiyasını icra edir. Vəziyyətin sabitləşməsi üçün bütün tədbirlər görülür, iş aparılır. Əgər bu məlum deyilsə, mən xatırlada bilərəm. Əgər bunu kim bilmirsə, ancaq siyasi bəyanatlara istiqamətlənirsə, xatırlatmaq istəyirəm ki, buna qədər də gərginlik olub, dəfələrlə problemlər olub, tərəflər bir-birini ittiham ediblər. Məhz Rusiya sülhməramlıları vəziyyətin sabitləşməsi üçün hər şeyi ediblər və bu onlarda alınıb. Ona görə də, sülhməramlılarımıza qarşı bu cür münasibət qəbuledilməzdir", deyə Rusiya XİN sözçüsü vurğulayıb.

# "Zelenskinin ABŞ-a səfəri sülhə hazır olmadığını göstərdi" - Diplomat

***"Ukrayna prezidenti Volodimir Zelenskinin ABŞ-a səfəri nə onun, nə də Amerika rəhbərliyinin sülh istəmədiyini və buna hazır olmadığını nümayiş etdirib".***

"Unikal" "RİA Novosti"yə istinadən xəbər verir ki, bunu Rusiyanın Vaşinqtondakı səfiri Anatoli Antonov deyib.

"Zelenskinin bura səfəri, Vaşinqtondakı danışıqlar göstərdi ki, nə ABŞ administrasiyası, nə də Zelenski sülhə hazır deyil", - diplomat bildirib.

Onun sözlərinə görə, Ukrayna və ABŞ münaqişəyə, əsgərlərin ölümünə və "Ukrayna rejimini daha da Vaşinqtonun ehtiyaclarına bağlamağa" yönəlib.

Antonov Amerika mediasında Rusiyanın guya sülhün əldə olunmasında maraqlı olmadığı barədə tezislərə də münasibət bildirib. O qeyd edib ki, bu tezislər "yalandır". O əlavə edib ki, Rusiya Federasiyasının mövqeyi prezident Vladimir Putin tərəfindən dəfələrlə



səsləndirilib.

Qeyd edək ki, dekabrın 21-də Zelenski ABŞ-a rəsmi səfərə gəlib.

***Gülayə Mecid***

# NATO-nun baş katibi Stoltenberq BVF-nin rəhbəri ola bilər

***NATO -nun baş katibi Yens Stoltenberq Beynəlxalq Valyuta Fondunun (BVF) rəhbəri ola bilər.***

"Unikal" xəbər verir ki, bu barədə TV2 məlumat yayıb. Telekanalın məlumatına görə, Stoltenberqin yeni vəzifəyə təyinatı onun alyans rəhbəri kimi səlahiyyət müddəti başa çatdıqdan sonra, yəni 2023-cü il oktyabrın 1-dək baş tuta bilər.

Bundan əvvəl Yens Stoltenberq Şimali Atlantika Aly-



ansının rəhbəri kimi mandatını uzatmaq barədə hələ düşünmədiyini bildirib .

Stoltenberqin sözlərinə görə, o, hazırda bütün diqqətini cari vəzifəsinə yönəldib.

Eyni zamanda, 2014-cü il oktyabrın 1-dən NATO-nun baş katibi postunu tutan Stoltenberq əmindir ki, alyans ölkələri onun yerinə layiqli əvəzləyici tapa biləcəklər.

Bundan əvvəl NATO ölkələrinin liderləri sammit zamanı Yens Stoltenberqin mandatının 2023-cü il sentyabrın 30-dək uzadılması barədə razılığa gəliblər.

***Gültəkin Ələsgər***

# Bu ölkədə dövlət çevrilişi cəhdinin qarşısı alındı

***Qərbi Afrika ölkələrindən biri olan Qambiyada dövlət çevrilişinə cəhdin qarşısı alınıb, 4 əsgər saxlanılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Qambiya hökumətinin sözçüsü Ebrima Sankareh məlumat yayıb. Onun sözlərinə görə, prezident Adama Barrounun administrasiyasını devirmək üçün çevriliş cəhdinin qarşısı alınıb.

Vəziyyətin nəzarət altında olduğunu vurğulayan Sankareh ictimaiyyətə və xarici missiya nümayəndələrinə sakit olmağa çağırıb.

***Seymur Əli***

# Paşinyan sülhməramlıların fəaliyyətini tənqid etdi

***"Ötən həftədən bəri Laçın dəhlizində yaranmış böhran həll olunmayıb".***

"Unikal" erməni mətbuatına istinadən xəbər verir ki, bunu Ermənistanın Baş naziri Nikol Paşinyan hökumətin bugünki iclasında deyib.

Oun sözlərinə görə, Rusiya sülhməramlı kontingenti üçtərəfli bəyanatda qeyd olunan öhdəliyi yerinə yetirmir. Xatırladaq ki, azərbaycanlı ekoloqlar dekabrın 12-dən yolu bağlayıblar. Əvvəlcə onlar Rusiya sülhməramlılarının məsuliyyəti zonasında minaların istismarının "qanunsuz" olduğunu və onların müvafiq "ekspertlərinin" istismar sahələrinə baş çəkməsinə və monitorinq aparmasına icazə verilməli olduğunu bəyan ediblər.

***Gülayə Mecid***

# Şəhidlərimizin şərəfinə idman yarışı keçirildi



*Lənkəran Olimpiya İdman Kompleksində Lənkəran Şəhər Gənclər və İdman İdarəsinin təşkilatçılığı sayəsində Vətən müharibəsinin şəhidi Vüsal Kazımovun xatirəsinə həsr olunan boks idman növü üzrə II açıq rayon turniri baş tutdu.*

Öncə dövlət himni səsləndi, Vətən naminə canından keçən şəhidlərin əbədiyaşar xatirəsi bir dəqiqəlik sükutla anıldı. Sonra tədbirdə Lənkəran Şəhər Gənclər və İdman İdarəsinin rəisi Teymur Babazadə , Lənkəran Şəhər İcra Hakimiyyətinin nümayəndəsi Zaur Mehrəliyev, şahid Vüsal Kazımovun atası Kamran müəllim, Lənkəran Şəhər Təhsil sektorunun müdiri Elman Rzayev, Azərbaycan Vətən Müharibəsi Veteranları İB Lənkəran rayon şöbəsinin sədr müavini Saleh Dostiyev, qazilər, Gənclərin İnkişafı və Karyera mərkəzinin Lənkəran nümayəndəliyinin direktoru Famil Məmmədov, Lənkəran Şəhər 5 saylı tam orta məktəbin direktor müavini Ağacəfər Fətullayev, yarışın baş hakimi Nazim Qulamov şəhidlərin keçdiyi döyüş yolu və göstərdikləri qəhrəmanlıqları haqında ürəkdolusu danışdılar, gənc nəsil üçün nümunə olduğunu, dövlətimizin başçısı cənab Prezident İlham Əliyevin və Birinci vitse-prezident



Mehriban xanım Əliyevanın onların xatirəsinin əziz tutmasını, eləcə şəhid ailələrinin bütün problemlərinin həlli istiqamətindəki gördüyü işləri bir daha xatırladılar. 44 gün davam edən Vətən müharibəsində düşmən üzərində parlaq qələbə çalaraq tarixi zəfərə imza atdığımız, torpağı Vətən edən qəhrəman oğulların xatirəsini uca tutmaq, onları daim yad etmək hər bir vətəndaşımızın borcu olduğunu bildirib və idmançılara uğurlar arzuladılar.

Turnirin açılış mərasimdə gənclər Vətəni, qəhrəmanlığı vəsf edən şerlər və mahnılar oxudular.

90 idmançının mübarizə apardığı turnirin yekununda qaliblər tutduğu yerlərə görə diplom və medallara layiq görüldülər .

Bundan əlavə, Lənkəran rayonu S. Əliyev adına Haftoni qəsəbə tam orta məktəbində Vətən müharibəsi şəhidləri Emil Qurbanov və Ehtiram Hüseynlinin xatirəsinə həsr olunmuş "Qəhrəmanlar unudulmur" adlı voleybol idman növü üzrə Lənkəran-Astara Regional Təhsil İdarəsinin tabeliyində olan ümumi təhsil müəssisələrinin müəllimlərdən ibarət yığma komandalar arasında yarış keçirilib.

Yarışda qonaq qismində Lənkəran-Astara Region Təhsil İdarəsinin rəhbərliyi, təhsil işçiləri və Vətən müharibəsi şəhidləri Emil Qurbanov və Ehtiram Hüseynlinin ailə üzvləri iştirak edib.

Yarışın yekun nəticəsinə görə Cəlilabad rayonun komandası birinci, Astara rayonunun komandası ikinci, Masallı rayonunun komandası üçüncü yerə layiq görülüb.

Qalib komandalara kubok və fəxri fərman verilib.

*Zəfər Orucoğlu,*
*AJB üzvü*

# Ronaldinyo: "Messi 8-ci dəfə "Qızıl top"u alacaq"

*Əfsanəvi braziliyalı futbolçu Ronaldinyo 2023-cü ildə "Qızıl top" mükafatı üçün favoritini açıqlayıb.*

Qol.az xarici KİV-lərə istinadən xəbər verir ki, o, bu mükafatı Argentina millisinin və PSJ-nin futbolçusu Lionel Messinin alacağını düşünür:

"Düşünürəm ki, Lionel Messi 8-ci dəfə "Qızıl top"u alacaq. O, dünya çempionatının finalında dubl edib və kuboku qazanıb. Bunun sayəsində Leo tarixə düşəcək".



Qeyd edək ki, 35 yaşlı Messi bir neçə gün əvvəl Argentina millisi ilə DÇ-2022-nin qalibi olub. Finalda dubl edən Messi ümumilikdə bu mundialda 7 qola imza atıb. Forvard yalnız Fransa yığmasının üzvü Kilian Mbappedən geri qalıb (8 qol). Həmçinin Messi bu mövsüm PSJ-nin heyətində 19 oyunda 12 qol vurub və 14 qolun ötürməsini verib. Futbolçu daha əvvəl 7 dəfə "Qızıl top" mükafatına layiq görülüb.

# Təmsilçimiz BƏƏ-də 2-ci oldu



*ASAPES SABAH qruplarında "Məşqçilik" ixtisası üzrə təhsil alan tələbələrə şahmat fənnini tədris edən Səbinə İbrahimova dekabrın 9-dan 16-dək Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Şarja şəhərində təşkil olunan "Sharjah Women's Cup 2022" beynəlxalq turnirində uğurla çıxış edib.*

"Unikal" xəbər verir ki, təmsilçimiz 9 oyundan 7 xal toplayaraq II yerə layiq görülüb.

# Pelenin səhhəti yenidən pisləşdi



*Üçqat dünya çempionu, məşhur braziliyalı futbolçu Pelenin səhhəti yenidən pisləşib.*

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, bu barədə keçmiş futbolçunun həkimləri məlumat veriblər.

Bildirilir ki, noyabrın 29-da düz bağırsağın xərçəngi, tənəffüs yolu infeksiyasının müalicəsi üçün kimyaterapiya kursunu tənzimləmək üçün xəstəxanaya yerləşdirilən Edson Arantis do Nasimentonun (əsl adı Pele - Red) müalicəsində mənfi tendensiya müşahidə olunur, buna görə də böyrək və ürək disfunksiyası səbəbindən daha intensiv müalicə tələb olunur.

# Yığmamız FİFA reytinqində irəlilədi



*Azərbaycan millisi FİFA reytinqində 2 pillə irəliləyib.*

"Unikal" xəbər verir ki, Canni De Byazinin baş məşqçisi olduğu komanda hazırda 1151.82 xalla 121-ci sırada qərarlaşıb.

Buna yığmanın yoldaşlıq görüşlərində Moldovanı 2:1, Şimali Makedoniyanı isə 3:1 hesabı ilə məğlub etməsi səbəb olub.

2022-ci ilin son reytinq siyahısına 1840.77 xalla Braziliya başçılıq edir. Aktivində 1838.38 xal olan son dünya çempionu Argentina yığması 2-ci pilləyə yüksəlib. DÇ-2022-nin finalçısı Fransa seçməsi isə 1823.39 xalla üçüncüdür.

Bir pillə irəliləyən Türkiyə seçməsi 1465.38 xalla 44-cü yerdə qərarlaşıb.

# "Araz Naxçıvan"dan yeni transferlər

*Futzal üzrə Yüksək Liqada qış fasiləsinə turnir cədvəlinin zirvəsində yollanan "Araz Naxçıvan" heyətini gücləndirmək istiqamətində işlər görür.*

Son çempion 6 futzalçı ilə anlaşıb. Yayda Belçikanın "Gent Beşiktaş" klubuna keçən Xətai Bağırov və İsa Atayev yenidən "Araz Naxçıvan"ın düşərgəsinə dönüb. Cari mövsümün ilk iki dövrəsini "Neftçi" İK-da keçirən qapıçı Emin Kürdov da bundan sonra Joze Alesio Da Silvanın rəhbərliyi altında çıxış edəcək. Ötən mövsüm U-19-un formasını geyinən, yayda isə Birinci Liqanın debütantı "Şamaxı"da çıxış edən Novruz Kazıxanov da "Araz Naxçıvan"a pənah gətirib. Milli komandanın üzvü Amadeu son çempionun yeni transferlərindəndir. Braziliyalı Nata Felipe De Moraes qışdan sonra təmsilçimizdə "stolb" kimi çıxış edəcək.

Qeyd edək ki, "Araz Naxçıvan" noyabrda Vitao, Vitinyo, Mikael Deon, David Qustavo, Pedro Torres və Sinesio ilə yollarını ayırıb.